# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

06-07 (101-102) 31 mart 2018-ci il XÜSUSİ BURAXILIŞ İctimai-siyasi qəzet


# 11 APREL — PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## İnkişaf edən, güclənən, dünyanın lider ölkələri sırasında layiqli yer tutan Azərbaycanın sınaqlardan çıxmış lideri - İlham Heydər oğlu Əliyev ölkə veteranlarının layiqli namizədidir

## 11 aprel - Prezident seçkiləri Azərbaycan xalqının iradəsinin təcəssümüdür

Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin layiqli davamçısıdır. Müasir Respublikamız Xalq Cümhuriyyətinin dövlətçilik prinsiplərinə əsaslanmaqla müasir, demokratik, tolerant və suverən dövlətdir. Bu gün hər bir sahədə respublikamızın əldə etdiyi nailiyyətlər xalqımızın əzmkarlığına, dəyanətinə və uğurla həyata keçirilən müvəffəqiyyətli siyasətə dayanır.

Demokratiya, insan hüquq və azadlıqlarına əsalanan Azərbaycan Respublikasının siyasi sistemi hər kəsə gün kimi aydındır. Sosial, siyasi, iqtisadi, mədəni, elmi, hərbi və digər sahələrdə əldə edilən uğurlar hər bir Azərbaycan vətəndaşının nailiyyətidir. Bu nailliyyət üzərimizə düşən işin öhdəsindən layiqincə gəlməklə dürüst və mərd fəaliyyətimizlə və eləcə də, nümayiş etdirdiyimiz siyasi iradəmiz və siyasi seçimimizdən irəli gəlir. Siyasi hakimiyyətin formalaşması və idarə olunmasında xalq iradəsinin müəyyənedici meyara çevrilməsi prosesində dünyanın inkişaf etmiş ölkələrindən heç də geri qalmayan Azərbaycan Respublikası bu şərəfli yolu uğurla keçirir.

Əziz və hörmətli Azərbaycan xalqı 11 aprel Prezident seçkiləri bizim üçün əlamətdar hadisələrdən biridir. 11 aprel seçkisi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə təsadüf edir, hər birimiz üçün qürürverici və məsuliyyətli hadisədir. Bu şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin bütün prinsiplərinə respublikamızın sadiqliyini bir daha sübut edir.

Xalqımız zaman-zaman müəyyən çətinliklərlə üzləşmiş və həmişə bu çətinliklərin öhdəsindən gəlməyi bacarmışdır. 90-cı illərin əvvələrində Respublikamızın qarşılaşdığı çətinliklər və onların həll edilməsi xalqımızın daim doğru seçim etməsinin bariz nümunəsidir.

Tarixi təcrübə göstərir ki, hər bir dövlətin mütərəqqi inkişafı müxtəlif səbəblərlə yanaşı həm də demokratik seçkilərdən asılıdır. Xalq dövlətin idarə edilməsində iştirak hüquqlarını əsas etibarilə seçkilər vasitəsilə reallaşdırır və bu zaman hakimiyyət də idarəedilənlərin razılığı ilə legitimliyini təmin edir. Bu razılığı hökumətin səlahiyyətinə çevirən ən başlıca mexanizm isə, ilk növbədə, azad, ədalətli və obyektiv seçkilərin təşkilidir.

Demokratik seçkilərin əsas şərti hesabat vermək məsuliyyətindən əlavə, həm də aşkarlıq, şəffaflıq, obyektivlikdir. Azərbaycan xalqı da ötən əsrin sonlarına doğru dövlət müstəqilliyinə qovuşduqdan sonra hüquqi, demokratik, dünyəvi inkişaf kursunu seçmiş, dünyanın sivil toplumu olaraq güvəndiyi, öz taleyini etibar etdiyi legitim siyasi hakimiyyəti məhz demokratik, azad, şəffaf seçkilər yolu ilə - müstəqil, azad iradə əsasında seçmək əzmini nümayiş etdirmişdir. 1991-ci ilin 18 oktyabrında qəbul olunmuş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nda xalqın azad, demokratik seçki yolu ilə hakimiyyəti formalaşdırmaq hüququ bütün dünyaya bəyan olunmuşdur.

Konstitusiya Aktının 1991-ci ildə qəbuluna baxmayaraq Azərbaycanda demokratik seçkilərin keçirilməsi 1993-cü ildə



Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün oldu. Məhz ulu öndərin sayəsində demokratik seçki mühitinin formalaşdırılması Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən birinə çevrildi.

Azərbaycan dövləti seçki təcrübəsinin demokratik standartlara uyğunlaşdırılması yönündə səyləri artırmış, beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərini gücləndirmişdir.

1993-cü ildən indiyədək keçirilən bütün seçkilərə, referendumlara, həmçinin ayrı-ayrı vaxtlarda parlamentə, bələdiyyələrə təyin olunmuş əlavə və təkrar seçkilərə dair beynəlxalq təşkilatların verdikləri müqayisəli rəylər onu təsdiq edir ki, Azərbaycanda seçkilərdən-seçkilərə seçki praktikası və mədəniyyəti daha da yüksəlmişdir. Təbii ki, bütün bunların kökündə Azərbaycan hakimiyyətinin ölkədə demokraktik dəyərlərin möhkəmlənməsi ilə bağlı qətiyyətli və ardıcıl mövqeyi dayanır.

Vətən və xalq üçün daim canını fəda etmiş veteranlarımızın 11 aprel prezident seçkilərində də fəal iştirak edəcəyinə inanıram. Vətəndaşlarımızı seçkilərdə aktiv iştirak etməyə səsləyirəm. Hər bir seçicini öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirməyə çağırıram. İşıqlı gələcəyimizin təmin edilməsi, dövlətçiliyimiz daimi olması, bizlərdən-hər birimizdən asılıdır. Mən və rəhbərlik etdiyim təşkilatın hər bir üzvü və əməkdaşı seçkidə aktiv iştirak edəcəyik. Hər zaman bütün sahələrdə eləcə də, veteranlarla bağlı məsələlərdə ədalətli, qətiyyətli və uğurlu siyasət nümayiş etdirən İlham Heydər oğlu Əliyevi dəstəkləyəcəyik. Doğru seçim etməyimiz gələcəyimizin sağlam sütünlar üzərində dayanmasının özülüdür.

*Respublika Veteranlar Təşkilatının sədri,*
***general-polkovnik Tofiq Ağahüseynov***

# Veteranlar seçkilərdə ən aktiv seçicilərdən olacaqlar

11 aprel Prezident seçkiləri bir sıra hadisələrlə yadda qalacaqdır. Artıq seçkilərə hazırlıq yekunlaşmaq üzrədir. Hər bir Azərbaycan vətəndaşı kimi veteranlar da bu seçkilərdə aktiv iştirak edəcəklər. MSK-dan verilən məlumata görə bu dəfəki prezident seçkilərində ən qocaman seçicinin yaşı 124-dür, bu qocaman vətəndaş Bərdə rayonu Xəsili kənd sakini Allahverdiyeva Səmərqə Gülməmməd qızıdır. Səmərqə nənə 1894-cü ildə anadan olmuşdur. Digər qocaman yaşlı seçici isə Biləsuvar rayonundan 118 yaşlı Səfər Qurbanovdur. Ümumiyyətə isə 371 seçicinin yaşı 100-dən çoxdur. Bu seçkilərdə ilk dəfə səs verəcək seçicilərin sayı isə 102 mindən artıqdır. Onlardan 143 nəfərinin doğum günü 11 aprelə təsadüf edir. Həmin gənclər MSK tərəfindən xüsusi təbrik kartları ilə təltif olunacaqlar.

Respublikamızda hal-hazırda 601 Böyük Vətən müharibəsi iştirakçısı vardır. Onlar da seçkilərdə səs vermə hüquqlarından istifadə edəcəklər. Ən çox Böyük Vətən müharibəsi veteranı Bakı şəhərinin Xətai rayonunda qeydiyyatdadır, onların sayı 32 nəfərdir. Nəsimi rayonu və Tovuz rayonlarının hər birindən 22 nəfər, Ağstafa 21, Nərimanov 20 nəfər Böyük Vətən müharibəsi veteranı seçkilərdə iştirak edəcəkdir.

Qaradağ rayon Lökbatan qəsəbəsində yaşayan II Dünya müharibəsi veteranı İsa İsmayıl oğlu 11 aprel Prezident seçkisində ilk dəfə seçici hüququ əldə etmiş nəticəsi İbrahim Vəliyevlə birgə iştirak edəcəkdir. Qeyd edək ki, İbrahim Vəliyev Daxili Qoşunlarda hal-hazırda həqiqi hərbi xidmətdədir. İsa baba: "Bu seçkilərdə hər birimiz səs verəcəyik, İbrahimlə vətənin keşiyində dayanıb, onunla birlikdə seçki məntəqəsinə gedə bilməyəcəm. Amma onunda mənim kimi doğru seçim edəcəyindən əminəm".

Azərbaycan Veteranı qəzeti olaraq səsvermə hüququ olan hər bir Azərbaycan vətəndaşını seçkilərdə aktiv iştirak etməyə səsləyirik.

# Prezident seçkilərində vətəndaş fəallığı

Respublika ictimaiyyəti 2018-ci 11 aprel prezident seçkilərində iştirak etməyə hazırlaşır. Ümummilli mənafelərimizin təmin edilməsi üçün seçkilər günü ictimai maraqların uğurlu praktikasına uyğun olaraq seçkilərdə fəal iştirak etmək və layiqli namizədi seçmək milli vəzifə və vətəndaşlıq borcu olaraq böyük əhəmiyyət kəsb edir. Səs verməzdən öncə Azərbaycanın dövlət müstəqilliyi əldə etdikdən sonra əldə etdiyi uğur və nailiyyətlər, təlatümlü illərin inkişaf məcrasına yönləndirilməsi və uğurlu gələcək üçün etibarlı zəmin hazırlanması göz önünə gətirilməlidir. Bundan sonra layiqli namizəd seçimi ən ədalətli şəkildə özünü nişan verəcəkdir. Azərbaycan böyük təbəddülatlar yaşadı, böyük çətinliklərdən keçdi, son nəticədə Ümummilli liderimizin və xalqın səyi ilə inkişaf edən, çiçəklənən Vətənimiz Azərbaycan doğuldu. İşğala, təhdidlərə məruz qaldıq, ama müstəqilliyimizi qazandıq və qoruduq. Hazırda xalqımız hər seçkilərdə müstəqil və suveren dövlətin vətəndaşı olaraq öz seçkilərini keçirir və layiqli, uğurlu seçki praktikasına müvəffəq olur. Ən əsası praktikada uğurla tətbiq olunmuş sivil idarəçilik - seçib-seçilmə hüquq və bacarığının nümayiş olunması hesab oluna bilər.

Hər bir vətəndaş öz ölkəsinin ona verdiyi hüquqdan qürurla istifadə etməli və özünün iradəsini əks etdirən seçkilərdə iştirak etməlidir. Seçki proseslərində demokratiya və inkişaf tərəfdarı olan siyasi qüvvələr tam səfərbərlik elan etməli, öz qüvvə və qabiliyyətlərini ortaya qoymalıdırlar. Bu halda Demokratik qaydada keçən seçkilər siyasi qüvvələr haqqında tam təsəvvür yaratmış olur. Kifayət qədər sosial bazaya malik olanlar, kifayət qədər də səs qazana bilirlər. Belə bir anlayışla hər bir seçki demokratiyanın sınağı, inkişaf və tərəqqinin meyarı rolunu oynamış olur.

Azərbaycan xalqı xoşbəxt yaşamağa layiq xalqdır. Ədalətlə çalışmaq və öyrəndiklərini praktikaya tədbiq etməklə qazanılan zəngin təcrübələr hələ bizlərə çox lazım olacaqdır.

Şəhla Qarayeva

# Seçki hüququ

Seçki hüququ Azərbaycan Respublikasında seçkili dövlət orqanlarının təşkili qaydalarını nizamlayan hüquq normalarının sistemidir. Seçki hüququ ölkənin Konstitusiyası ilə müəyyən edilir. Seçki hüququ sahəsində yaranan münasibətlər Seçki Məcəlləsi ilə tənzimlənir.

Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur.

Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər.

Vətəndaşların seçmək və seçilmək hüququ Azərbaycan Respublikasında dövlət işlərinin və ictimai işlərin idarə olunmasında onların iştirakı haqqında Konstitusiya ilə verilmiş hüquqların ən mühüm hüquqi təminatıdır. Respublikanın vətəndaşları seçki qanunları ilə müəyyən edilmiş qaydada ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçib-seçilirlər.

İrqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır ( ümumi seçki hüququ).

Vətəndaşlar seçkilərdə və referendumda bərabər əsaslarla iştirak edirlər. Hər bir səsvermə zamanı hər bir vətəndaşın bir səsi vardır. Vətəndaşların hər bir səsi eyni hüquqi qüvvəyə malikdir (birbaşa seçki hüququ).

Vətəndaşlar seçkilərdə namizədin lehinə, referenduma çıxarılan məsələnin lehinə və ya əleyhinə şəxsən səs verirlər. Başqa şəxslərin yerinə səs vermək qadağandır. Başqalarının əvəzinə səs verən və ya bunun üçün şərait yaradan vətəndaşlar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində göstərilən məsuliyyətə cəlb olunurlar (bərabər seçki hüququ).

Seçkilər və referendum zamanı səsvermə gizli olmalıdır, bu isə seçicilərin iradəsinin ifadəsi üzərində hər cür nəzarəti istisna etməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və Seçki Məcəlləsinin Məcəlləsinin 14-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, Milli Məclisə seçkilərin, Prezident seçkilərinin, bələdiyyələrə seçkilərin, referendumun keçirilməsi günü (həmin gün də daxil olmaqla) 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının seçmək, referendumda səs vermək, seçkilərin (referendumun) gedişini müşahidə etmək, seçkiqabağı (referendumqabağı) təşviqatda iştirak etmək, bu Məcəllə ilə nəzərdə tutulmuş seçki hərəkətlərində və referendumun hazırlanması ilə bağlı hərəkətlərin həyata keçirilməsində iştirak etmək hüququ - aktiv seçki hüququ vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinin II hissəsinə uyğun olaraq, məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslər seçkilərdə, habelə referendumda iştirak etmək hüququndan - aktiv seçki hüququndan məhrumdurlar.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və Seçki Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, aktiv seçki hüququna malik olan hər bir vətəndaşın referendum üzrə təşviqat qruplarının yaradılmasının təşəbbüsçüsü olmaq, Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş Prezidentliyə, deputatlığa, bələdiyyə üzvlüyünə namizədlər üçün irəli sürülən tələblərə cavab verdikdə, Milli Məclisin deputatı, Prezident, bələdiyyə üzvü seçilmək hüququ - passiv seçki hüququ vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinin III hissəsinə, 85-ci və 100-cü maddələrinə uyğun olaraq, aşağıdakı şəxslərin Milli Məclisin deputatı, Prezident, bələdiyyə üzvü seçilmək hüququ - passiv seçki hüququ yoxdur:

- məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum etmə yerlərində cəza çəkən şəxslər;

- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərə görə məhkum olunmuş şəxslər;

- ikili vətəndaşlığı olan Azərbaycan Respublikası vətəndaşları (ikili vətəndaşlığı qalanadək);

- xarici dövlətlər qarşısında öhdəlikləri olan Azərbaycan Respublikası vətəndaşları (həmin öhdəliklərə xitam verilənədək). Belə öhdəliklər 5 ildən çox xarici dövlətdə yaşamaqla bağlı əmələ gələn davamlı, möhkəm və sabit münasibətlərin mövcudluğuna səbəb olan qeydiyyat, vergi, ölkə ərazisini müəyyən müddətdən artıq tərk etməmək, habelə digər siyasi və ya hüquqi öhdəliklər də ola bilər.

Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər.

Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 7 il müddətinə seçilir. Azərbaycan Respublikasının Prezidenti növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini elan edə bilər.

Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

Bu səs çoxluğu səsvermənin birinci dövrəsində toplanmayıbsa, səsvermə günündən sonra ikinci bazar günü səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə ancaq birinci dövrədə ən çox səs toplamış iki namizəd yaxud ən çox səs toplamış və öz namizədliyini geri götürmüş namizədlərdən sonra gələn iki namizəd iştirak edir.

Səsvermənin ikinci dövrəsində səs çoxluğu toplayan namizəd Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsini mümkün etmədikdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir.

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatı səsvermə günündən sonra 14 gün ərzində Azərbaycan Respublikasının Konstitusiya məhkəməsi rəsmən elan edir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxs Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatın elan olunduğu gündən başlayaraq 3 gün ərzində Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içir. And içdiyi gündən Azərbaycan Respublikasının Prezidenti öz səlahiyyətlərinin icrasına başlamış sayılır.

***Hazırladı: Vüsalə Cəfərli***

# Biz hər zaman doğru seçim edirik

Nəsimi Rayon Veteranlar Təşkilatının sədri İsmayıl Mövsüm oğlu Fərəcov 1 iyul 1924-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda dünyaya göz açmışdır. 1942-ci ildə hərbi xidmətə çağırılan və Kazım İsmayılovun rəhbərlik etdiyi 77-ci Stavropol diviziyasında qulluq edən İsmayıl Fərəcov müharibənin ən alovlu vaxtlarında daim ön cəbhədə vuruşub, eyni zamanda alman ordusunun dərinliklərində kəşfiyyatçı kimi böyük hünər göstərmiş qəhrəman döyüşçülərimizdəndir. Mazdokdan başlamış Berlinə kimi, Moldoviya, Çexoslovakiya, Rumıniya, Polşa, Macarıstanda vuruşmuşdur. İsmayıl Fərəcov həmçinin Qarabağ müharibəsində də iştirak etmişdir.

İsmayıl müəllim hal-hazırda Respublikanın ictimai həyatında fəallığı ilə seçilən veteranlarımızdandır. O, həmçinin rayon ərazisində yaşayan veteranların ictimai işlərdə aktivliyinin artırılması,onların sosial problemlərinin həllində yorulmadan çalışır.

Bu gün bütün istiqamətlərdə davamlı olaraq inkişaf edən, iqtisadi gücünü artıran Azərbaycanın qarşısında dayanan hədəflər hər bir vətəndaş üçün çox önəmlidir. Çünki həyata keçirilən uğurlu siyasət birbaşa vətəndaşın sosial rifahına yönəlir. Öz ətrafında Nəsimi rayon veteranlarını birləşdirən, ictimai tərbiyə və cəmiyyətin önəmli proseslərində fəallığın tərbiyəsi ilə bağlı işləri daim yüksək səviyyədə qurmağa çalışan İsmayıl Fərəcov Azərbaycanın gələcək inkişafı üçün önəmli olan seçkilərdə hər bir Azərbaycan vətəndaşının fəal iştirak etməsini və ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevə səs vermələrini tövsiyə edir.



Veteranların layiqli namizədi olan Prezident İlham Əliyevin genişmiqyaslı fəaliyyəti, apardığı uğurlu siyasət və dövlət əhəmiyyətli xidmətləri ilə xalqın hər bir nümayəndəsinin səsini qazanmağa haqqı çatdığını vurğulayan İsmayıl Fərəcov veteranların hər zaman olduğu kimi bu seçkilərdə də öz seçimlərinə sadiq qalacaqlarını əminliklə bildirdi.

Qeyd edək ki, dəyərli veteranlarımızdan olan İsmayıl Fərəcov Ulu Öndər Heydər Əliyevlə eyni məktəbdə oxumuşdur.

# Prezident seçkilərinə hazırıq!

Əziz və hörmətli Prezidentimizin 11 aprel 2018-ci il tarixdə növbədənkənar Prezident seçkiləri keçirilməsi haqqında fərmanı biz veteranların sevincinə səbəb olmuşdur. Biz veteranlar arzulayırıq ki, növbəti Prezident seçkisində Prezidentimizə səs vermək bizə də qismət olsun.



İlham Əliyev cənabları yanvarın 29-da Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikasının regionlarının 2014-2018-ci illərdə sosial - iqtisadi inkişafı Dövlət Proqramı" nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransında da göstərmişdir ki, ölkəmizdə ötən 14 il ərzində görülən işlər göz qabağındadır.

Respublikamızın son illərdə inkişafının elə bir sahəsi yoxdur ki, orada Şəkinin də payı olmasın.

Hörmətli Prezidentimiz ayrı- ayrı rayonların sosial- iqtisadi inkişafı haqqında vaxtaşırı sərəncamlar verir. Lakin Şəki haqqında verilmiş sərəncamlarda cənab Prezidentimiz Şəki şəhərinin inkişaf strategiyasına uyğun olaraq tikinti abadlıq işlərinin aparılmasında özünəməxsusluğun saxlanılmasına, ətraf mühitlə vəhdətin təmin olunmasına, tarixi mədəniyyət abidələrinin mühafizəsinə və mövcud mədəni-tarixi potensialdan səmərəli istifadəyə xüsusi diqqət yetirilməsinin zəruri olduğunu dəfələrlə bildirmişdir. Mən deyərdim ki, sərəncamlarda şəkililərin arzularından kənarda qalan heç nə yoxdur.

Şəhərin tarixi abidələr hissəsi başdan- başa yenidən qurulub bərpa olunmuşdur. Kəndlərdə və şəhərdə bir çox məktəblər tikilib və bərpa olunub. Şəkidən Qaxa gedən yol yenidən qurulub, 1 km 200 m uzunluğunda körpü salınıb, həmin yol artıq Qaxı keçib Zaqatalaya çatıb nəticədə rayonlar arasında məsafə 50 km qısalıb. Kənd yollarımız əsaslı bərpa olunub. Cəfərabad, Aydınbulaq, Aşağı Daşağıl, Aşağı Küngüt, İbrahimkənd, Fazil kənd yolları əsaslı bərpa olunub. Şəhərdə yeni 100 çarpayılıq xəstəxana tikilib istifadəyə verilib, kəndlərdə ambulatoriyalar təmir olunub. Şəhərdə rayonlararası məhkəmə kompleksi, Beynəlxalq Pasport İdarəsi, sürücülərin qeydiyyat mərkəzi, gömrük xidməti üçün rayonlararası binalar tikilib istifadəyə verilib. Hazırda ASAN Xidmət üçün nəhəng bina tikilir, şəhərdə su və kanalizasiya tikintisi sürətlə davam etdirilir, eyni zamanda uzunluğu 50,9 km olan Çayqaraqoyunlu, Turan-Sarıca, Qozlubulaq-Sarıca-Qayabaşı, Bolludərə, Qaratorpaq yolunun tikintisi davam edir. Kiş kəndində olan Alban məbədinə yol çəkilir. Marxal İstirahət Mərkəzi istifadəyə verilib.

Bütün bunlarla yanaşı, hörmətli Prezidentimiz demişdir: "Hazırda Azərbaycanın regionlarının inkişafına dair çox geniş fərman hazırlanır. Əminəm ki, bu fərman imzalanandan sonra bu istiqamətdə müsbət nəticələr görəcəyik."

Bu yolda və seçkilərdə əziz və hörmətli Prezidentimizə uğurlar və müvəffəqiyyətlər arzulayırıq. Seçkidə Prezidentə səs verməyə hazırıq.

Mustafa Əhmədov
Şəki şəhər Müharibə, Əmək, Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri

# Seçkidə hər birimizin iştirak etməliyik

Azərbaycan Respublikasının dövlət hakimiyyətinin əsasını Azərbaycan xalqının iradəsi təşkil edir.

Azərbaycan xalqının iradəsi ümumi, bərabər və birbaşa seçki hüquqi əsasında gizli səsvermə yolu ilə öz təzahürünü tapır.

Azərbaycan dövləti, Azərbaycan Respublikası vətəndaşlarının iradəsinin azad şəkildə şəkildə ifadə edilməsinə, seçki hüququnun prinsip və normalarının müdafiə edilməsi yolu ilə təminat verir.

Seçki Məcəlləsi bütün hallarda keçirilən seçkiləri tənzim edən qanundur.

Bu qanun Azərbaycan Respublikası Parlamentinin, Milli Məclisin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və Bələdiyyə seçkilərinin, həmçinin ümumxalq səsverməsinin - referendumun təşkili və keçirilməsi qaydalarını müəyyən edir.



Qüvvədə olan hazırkı Seçki Məcəlləsi 7 bölmə, 38 fəsil və 246 maddədən ibarətdir.

Məcəllənin 103, 212-ci səhifələrdə 13, 31-ci fəsillər və 74, 189-cu maddələr Prezident seçkilərinə həsr edilmişdir.

Qeyd etmək lazımdır ki, seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra Prezidentliyə namizədlər irəli sürülür. Bu qayda layiqincə həyata keçirilmişdir.

Məlumdur ki, Mərkəzi Seçki Komissiyasının sədri hörmətli Məzahir Pənahov Prezident seçkilərinin ədalətli keçirilməsi üçün çox böyük fəaliyyət göstərir.

Mərkəzi Seçki Komissiyası 43 səhifədən ibarət Prezident seçkilərinə həsr etdikləri təlimat diqqətəlayiqdir.

Diqqəti cəlb edən məsələlərdən birisi də budur ki, vətəndaş bu və ya digər səbəbdən seçki günü başqa regionda olduqda o, seçki məntəqəsindən və ya seçki dairəsindən vəsiqə almalıdır. Bu vəsiqə əsasında o, Respublikamızda və ya xaricdəki konsulluq və ya səfirliklərdə səs vermək hüququnu həyata keçirməlidir.

Əgər vəsiqəni bilavasitə özü almaq imkanına malik deyilsə, inandığı şəxsə etibarnamə verməklə bu işi 8 aprel 2018-cı il tarixə qədər nizamlamalıdır.

Başqa ölkələrdən fərqli olaraq bizim ölkədə demokratik seçki sistemi vardır. Bu seçki sistemə görə məhkum olmuş insanlar da səsvermək hüququna malikdirlər.

Başqa ölkələrdən fərqli olaraq bizim dövlətimizdə məhkumlar da səsvermə hüququna malikdirlər. Belə hesab edirik ki, 11 aprel 2018-ci il tarixə təyin olunmuş Prezident seçkisi toy-bayram şəklində keçəcəkdir.

Şəxsən mən özüm və bütün qohum-əqrəbəm, tanışlarım, dostlarım, qonşularım, prokurorluq orqanlarının əmək veteranları cənab İlham Əliyevə səs verəcəyik.

İnanırıq ki, bütün müharibə və əmək veteranları da sevimli rəhbərimiz İlham Əliyevə səs verəcəklər. Azərbaycan xalqı öz ləyaqətli oğlunu Prezident seçməklə parlaq gələcəyimizə işıq saçacaqdır.

Cahangir Nəsirov
Respublikası Veteranlar Təşkilatında Nəzarət-Təftiş Komissiyasının sədri

AZƏRBAYCAN VETERANI

# ƏN UĞURLU SEÇİM – İLHAM ƏLİYEVDİR

11 aprel 2018-ci ildə Azərbaycanın siyasi inkişaf tarixində yeni, daha uğurlu bir mərhələnin gəlişi gözlənilir. Belə tarixi məqamlarda insanlar əqidəcə bir-birlərinə yaxın adamları axtarır, fikir mübadiləsində yeni fikirləri ortaya qoyub zehnən araşdırmalar, aparır və qarşıdan gələn dövrlər üçün ən keçərli olanı tətbiq etməyə qərar verirlər. Nəzərə almaq lazımdır ki, bir filosofun dediyi kimi indi insanlarımızı sadəcə olaraq həyata keçirilməsi mümkün olmayan quru, əsassız vədlərlə, nağıl, əfsanə, rəvayət, risalələr, öyüd-nəsihətlərlə inandırmaq çox çətindir. Müasir zamanda istər yaşlılarımız, istərsə də cavanlarımız ancaq sınaqdan keçmiş, ağılları fəth edə bilən təfəkkür materiallarına ehtiyac hiss edirlər. Təbliğatla-təşviqatla məşğul olan hər birimiz bunu nəzərə almalıyıq, əks təqdirdə həqiqətləri belə həmsöhbətlərimizə inandıra bilmərik. Onu da nəzərə almaq lazımdır ki, hazırki dövrdə insanlarımızın, sadalanan elektronlaşma, kompyütürləşmə kimi texniki reallıqlarla əlaqəli, seçmə və yaxşını pisdən, reallığı yalandan, ayırdetmə qabiliyyətləri çox dəyişmişdir.

Mən hesab edirəm ki, 11 aprel Azərbaycan Respublikası prezidentinin seçkilərində iştirak etmək, doğru seçimi qabaqcadan müəyyənləşdirmək və seçki məntəsinə tam, qətiyyətli fikirlə gəlmək hər bir seçicinin həm də əxlaqi tərəfindən xəbər verir. Axı həmin gün milyonların, həm də gənc, ayaqları üzərində möhkəm dayanıb dünyadakı rəqabətlərə sinə gərə bilən müstəqil Azərbaycanımızın taleyüklü məsələsinə doğru cavab verilməlidir. Məhz elə buna görə də hesab edirəm ki, doğru cavabı seçicilər verə bilər. Mən qələmə aldığım bu yazıda kimlərinsə hissiyatına, siyasi səbatsızlığına işarə etmək, toxunmaq məqsədi güdmürəm. Lakin cəmiyətimizdə belələri varsa da "zərərin yarısından qayıtmağın özü də xeyirdir" atalar sözünü onlara xatırlatmaq istəyirəm. Fikirlərimi əsaslandırmaqdan ötrü insanlarımızın bu atalar sözünə sadiqliyini başıma gələn bir hadisəni oxucuların nəzərinə çatdırmaq istəyirəm. Ötən əsrin 69-cu ili idi. 10-cu sinifi əla qiymətlərlə bitirdim, lakin mənə "qızıl medal" vermədilər. Əlbətdə ki mən belə olmasından məyus oldum. İyulun sonunda attestatı almaq üçün məktəbə gəldim. Məni ilk qarşılayan idman və bədən tərbiyəsi müəllimim Arif Cəbrayılov oldu. Orta yaşlı Arif müəllim mənim kasıb ailəmi çox yaxşı tanıyırdı və istedadım onu qəlbən maraqlandırırdı, vəziyyətdən də xəbərdar idi. Məni görən müəllimim uşaq kimi sevinirdi. Nə olduğunu soruşdum. O, mənə şad xəbər verib dedi: "Balası, sənə şad xəbərim var. Azərbaycan kommunist partiyasının 1-ci katibi Heydər Əliyev deyilən bir şəxs seçilib. Özü də əvvəllər Təhlükəsizlik orqanlarında rəhbər olub, rüşvətxorluğun düşmənidir. Ölkədə rüşvətsiz həyat başladı. Sən bu savadınla istənilən ali məktəbə daxil olacaqsan. İstedadlı kasıbların həyat üzünə güldü". Əlbətdə mən çox sevindim ki, artıq öz biliyimlə ali məktəbə daxil olacam. Tarix adi kənd müəllimi Masallı rayonunun Cəfər Cabbarlı adına Ərkivan kənd orta məktəbinin müəllimi Arif Cəbrayılovun bu uzaqgörənliyini sübut etdi.

Mən qarşıdan gələn Prezident seçkilərinə qayıtmaq istəyirəm. Seçki marafonuna start verilib. Namizədliyini irəli sürənlər var. Əlbətdə bu demokratiyanın tələbidir, insanlarımızın Kostitusiyon hüququdur, toxunulmazdır qanunlarımızla, beynəlxalq normalarla qorunur. Bu məsələnin bir tərəfidir. Amma ikinci tərəfi də var. Öz namizədliyini irəli sürən hər bir azərbaycan övladı özünə bir sual verməlidir : " Mən bu xalq, bu dövlət, bu Vətən üçün nə etmişəm və bundan sonra nə edə bilərəm?"

Yeni Azərbaycan Partiyası Azərbaycan Prezidenti seçkilərində iştirak üçün Əliyev İlham Heydər oğlunun namizədliyini irəli sürmüşdür. Bu namizədlik Respublikanın Müharibə, Əmək və Silahlı Qüvvələr veteranları Təşkilatının ümumi yığıncağında da qəbul edilmişdir. Ölkə vətəndaşlarının böyük əksəriyyəti cənab İlham Əliyevin namizədliyini ürəkdən bəyənir və 11 apreldə yalnız ona səs verəcəklərini bildirirlər. Elə rayonumuzun çoxsaylı veteranları da elə bu fikirdədirlər.



Biz öz qərarımızı verərkən hər şeyi götür qoy etmişik, çünki " İlhamla irəli" şüarının populistik bir şüar olmadığını, reallıqlarla tam əlaqəli olduğunu görürük. Ədalət naminə qeyd etmək istəyirəm ki, ötən illər ərzində əldə edilən uğurlar açıq şəkildə sübut edir ki, möhtərəm prezidentimiz İlham Əliyev bütün sahələrlə yanaşı iqtisadiyyatı, xüsusən onun müasir metodlarla idarə olunması mexanizmini çox yaxşı bilir. Məhz onun rəhbərliyi altında gənc müstəqil dövlətimiz iqtisadiyyatın bütün sahələrində qlobal inkişaf mərhələsinə keçid aldı. Dünyada baş alıb gedən həm iqtisadi, həm siyasi , həm də ideoloji böhranlara sinə gərən ölkəmiz çox az itki ilə müstəqil inkişaf yolunu davam etdirir. Cənab İlham Əliyevin həm bazar iqtisadiyyatı tələblərinə uyğun olan, həm də vətəndaşlarımızın sosial müdafiəsini ön planda saxlayan uzaqgörən siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan dünyanın nəhəng dövlətlərinin diqqət mərkəzindədir. Azərbaycan İlham Əliyev cənablarının " ASAN xidmət", "ASAN Həyat" və bu kimi digər beyin məhsullarının müasir dünyaya təqdimatı ilə özünün yeni inkişaf modelini təqdim edir.



Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müstəqil dövlətimizin milli inkişafına yönəldilən yüzillərə hədəflənmiş siyasi kursuna sadiq olan İlham Əliyev ölkədə demokratik prosesləri yaxın müddətdə başa çatdırmaq, içərisində hər birimizin olduğu vətəndaş cəmiyyətini müasir sivil tələblər səviyyəsində inkişaf etdirmək əzmi ilə fəaliyyət göstərir. Bu arada xalqımızın Ulu Öndəri Heydər Əliyevin aşağıdakı müdrik sözlərin yada salmaq istəyirəm: "Sizi əmin edirəm ki, Azərbaycan xalqı indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır". Özünün prezidentliyi ərzində cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olaraq onların kostitusiyon hüquq və azadlıqlarının qarantı rolunu oynamış və bununla da xalqımızın hörmət və etimadını qazanmışdır. Onun rəhbərliyi altında mühüm layihələr həyata keçirilmişdir və keçirilməsi davam etdirilir. Zənnimcə, müstəqil dövlətimizin dünya ölkələri birliyində nüfuzunun möhkəmləndirilməsi, insanlarımızın rifahının daha da yaxşılaşdırılması məqsədlərini nəzərdə tutan bu möhtəşəm layihələrin onları başlayan İlham Əliyev cənabları tərəfindən davam etdirilməsi təbii reallıqları əks etdirən zərurətdir və xalqımız bu imkanı öz səslərini məhz ona verməklə yaratmalıdırlar. Masallının çoxsaylı Müharibə, Əmək və Silahlı Qüvvələr veteranları qarşıdan gələn 11 aprel Azərbaycan Respublikası prezidenti seçkilərində namizəd cənab İlham Əliyevə verməyi qərarlaşdırıblar və hesab edirlər ki, bu ən düzgün, doğru seçimdir. Xalqımızı cənab İlham Əliyevi dəstəkləməyə çağırıram. Hamını seçkilərə səsləyirəm!

*Məmmədağa Şiriyev,*
*Masallı Rayon Veteranlar Təşkilatının sədri, Qarabağ müharibəsi veteranı*

# "Respublika Veteranlar Təşkilatının fəaliyyəti müasir tələblər səviyyəsindədir"

**Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilovun müsahibəsi.**

*-Cəlil müəllim, Azərbaycan Respublikası Prezidentinin 9 mart 2018-ci il tarixli Sərəncamı ilə müharibə veteranlarına dövlət qayğısının artırılması məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondundan Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına üç yüz min manat vəsaitin ayrılmışdır. Bu sərəncamın Sizin fəaliyyətinizə müsbət təsirləri barədə oxucularımıza nə deyərdiniz?*

-Əlbəttə, möhtərəm Prezident tərəfindən həmin vəsaitin ayrılması fəaliyyətimizin daha səmərəli təşkilnə geniş imkanlar yaradır. Belə ki, sərəncamda da qeyd edildiyi kimi Təşkilatın maddi-texniki bazasının gücləndirilməsi, fəaliyyətlə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunmasına şərait yaradılmışdır. Bu isə ümumi işin, ən başlıcası gənclərin hərbi vətənpərvərlik, azərbaycançılıq ruhunda tərbiyəsi sahəsində aparılan işlərin səviyyəsinin daha da yüksəldilməsi, tədbirlərin sayının və coğrafiyasının genişlənməsi üçün stimul olacaqdır. Ölkə başçısının veteranlara göstərdiyi yüksək diqqət və qayğının növbəti nümunəsi olan bu sərəncama biz əməli fəaliyyətimizlə cavab verməyə çalışacağıq və sizi əmin edim ki, yaxın bir neçə aydakı Tədbirlər Planımızla yaxından tanış olsanız qeyd edilənlərin nə qədər real olduğunu görərsiniz.

*-Bəlkə bu barədə oxucularımıza bir qədər ətraflı məlumat verəsiniz?*

-Tədbirlər Planına uyğun olaraq, Respublika Veteranlar Təşkilatı tərəfindən növbəti aylarda, xüsusilə aprel-oktyabr ayları ərzində bir sıra ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi nəzərdə tutulur. Bu sırada yalnız bir neçə tədbirin adını çəkmək kifayətdir ki, görüləcək işlərin miqyası və əhəmiyyəti barədə müəyyən təsəvvür yaransın. Belə ki, biz ümummilli lider Heydər Əliyevin 95 illik, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileylərinin Azərbaycanın rayon, şəhər veteran təşkilatları ilə yanaşı, MDB ölkələri və Türkiyə veteran təşkilatlarının iştirakı ilə beynəlxalq səviyyədə keçirilməsini planlaşdırmışıq. Bu tədbirlər silsilə xarakter daşıyacaqdır. Biz əksər tədbirləri ölkə gənclərinin iştirakı ilə, həmçinin təhsil müəsisələrində keçirməyi planlaşdırırıq.Təşkilat tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi ilə bağlı respublika səviyyəsində silsilə tədbirlər keçirilməsi də nəzərdə tutulur. Qeyd olunan Tədbirlər Planında dövlətçilik və qəhrəmanlıq tariximizin, Azərbaycan əsgərinin torpaqlarımızın azad edilməsi uğrunda göstərdiyi şücayət və fədakarlıqların, ölkəmizin bugünki inkişafının təbliği məqsədilə keçiriləcək müntəzəm tədbirlər də əksini tapmışdır.

Bizim illik fəaliyyətimizin ən mühüm və ən məsuliyyətli tədbiri İkinci dünya müharibəsində alman faşizmi üzərində qələbənin ildönümünün qeyd olunduğu bayram günlərində Azərbaycan Respublikasının Prezidentinin həmin müharibənin iştirakçıları ilə görüşünün təşkilidir.Ötən il də qələbənin 72 illiyi münasibətilə möhtərəm Prezident,cənab İlham Əliyev veteranlarla görüşdü, onlara öz adından ziyafət verdi və gündəlik qayğıları ilə maraqlandı. Bilirsiniz ki, Azərbaycanda hər il İkinci dünya müharibəsi iştirakçılarına, bu müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövürdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə verilən birdəfəlik maddi yardımın həcmi artırılır. Hazırda bu rəqəm müvafiq olaraq 1000 və 500 manat təşkil edir. Veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində hər il müxtəlif fərman və sərəncamlar imzalanır və icra olunur. Bu qayğının əyani sübutları barədə dövlət orqanları ilə yanaşı, biz də ölkə ictimaiyyətinə müntəzəm hesabat veririk. Azərbaycanda veteranların problemlərinin həllinin dövlətin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xətt olduğunu təkzibedilməz faktlarla çatdırırıq.

Təşkilatımız Azərbaycanın İkinci dünya müharibəsində iştirakı ilə bağlı məsələlərə daim xüsusi əhəmiyyətli iş kimi yanaşmış, bu istiqamətdə çoxsahəli fəaliyyət planları işlənib həyata keçirilmişdir. Azərbaycanın faşizm üzərində qələbəyə verdiyi böyük töhfələr, azərbaycanlıların göstərdiyi qəhrəmanlıqlar, xüsusilə milli-atıcı diviziyaların şanlı döyüş səlnaməsi və bütün bunların təbliği və s. məsələlər bu gün xüsusi diqqət mərkəzindədir. Həmçinin, itkin düşmüş müharibə iştirakçılarının axtarışı ilə məşğul olunur.

Yeri gəlmişkən, ötən il Respublika Veteranlar Təşkilatının 30 illik yubileyininin qeyd edilməsi məqsədilə müvafiq tədbirlər planı hazırlanmışdı. Ancaq maliyyə imkanımız olmadığından və digər səbəblərdən biz bu tədbirləri keçirə bilməmişdik. Doğrudur, yubileylə bağlı Təşkilatın muzeyi yaradıldı və 30 illik tarixi yolu əks etdirən kitab yazılıb çap etdirildi. Ayrılmış maliyyə hesabına həmin



yubileylə bağlı tədbirlərin də keçirilməsinə artıq imkanımız olacaqdır. Bu mühüm tədbirlərlə yanaşı, Respublika Veteranlar Təşkilatı veteranların ölkənin ictimai-siyasi həyatında fəal iştirakları, onların sosial müdafiəsinin gücləndirilməsi və s. istiqamətlərdə ardıcıl və məqsədyönlü fəaliyyətini də uğurla davam etdirəcəkdir. Bütün bunlar əslində bizim gündəlik fəaliyyətimizin ayrılmaz tərkib hissələridir.

*-Cari ilin əvvəlindən gördüyünüz işlər barəsində konkret nə deyərdiniz?*

-Əvvəla qeyd edim ki, biz fəaliyyətimiz barədə Təşkilatımıza məxsus "veteran.az" saytında və "Azərbaycan Veteranı" qəzetidə ölkə ictimaiyyətinə müntəzəm məlumatlar çatdırırıq. Ölkə mediası ilə sıx əməkdaşlığımız da fəaliyyətimizin işıqlandırılmasında mühüm rol oynayır. Yeri gəlmişkən, mən təbliğat işində bizə daim dəstək olan ölkə KİV-lərinə, onların rəhbərlərinə və əməkdaşlarına Təşkilatımız adından təşəkkür edirəm. Bu sahədə "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "525-ci" və s. qəzetlərin, AzərTAC, "APA", "Moderator. az", "Trend", "İnterfaks" məlumat agentliklərinin, Azərbaycan TV, İctimai TV, Lider TV, "XəzərTV", Space TV-nin adını çəkmək istərdim. Bir daha vurğulayıram, əgər həmin məlumatlarla tanış olsanız gənclərin hərbi vətənpərvərlik tərbiyəsi və digər istiqamətlərdə Təşkilatın necə səmərəli fəaliyyət göstərdiyi barədə kifayət qədər informasiya əldə edə bilərsiniz. Son iki ayda keçirdiyimiz tədbirlərə gəlincə, 20 Yanvar - Ümumxalq Hüzn günü, Xocalı soyqırımının 26-cı ildönümü, Respublika Veteranlar Təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynovun 95 ilik yubileyi münasibəti ilə və 2018-ci il Azərbaycan Respublikası prezidenti seçkilərində namizədin irəli sürülməsi ilə əlaqədar 14 fevral 2018-ci ildə keçirilən tədbirləri, həmçinin 01 fevral 2018-ci il tarixində Respublika Veteranlar Təşkilatında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Admistrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla veteranların görüşünü də xüsusi qeyd etmək istərdim.

Ümumən, RVT-nin fəaliyyətinin səmərəli qurulmasında Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında veteranlara göstərilən qayğı və diqqətin mühüm rol oynadığını bir daha vurğulamaq istərdim. Veteranlar adından yaradılmış şəraitə, yüksək qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı çatdırır, həmişə dövlətin, xalqın yanında olduğumuzu bildiririk.

Azərbaycan dövləti əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş veteranlara qayğı siyasətini bu gün doğrudan da uğurla davam etdirir. Şübhə yoxdur ki, burada başlıca məqsəd vətənpərvər insanların xidmətlərinin qiymətləndirilməsi, cəmiyyətdəki mövqeyinin, sosial müdafiəsinin gücləndirilməsi ilə yeni nəslin bu ənənələrə uyğun ruhda tərbiyəsinə stimul yaratmaqdır.

*-Tədbirlərimizin əhatə etdiyi kontingentin müxtəlifliyi daim diqqət çəkir.*

-Sözünüzü kəsmək olmasın, bizim tədbirlər həmişə qələbəlik olur. Hətta bir çox tədbirlərimizə arzu edənlərin hamısını dəvət edə bilmirik. Tədbirlərimizdə bütün qruplardan olan veteranların və əsasən gənclərin iştirakına xüsusi önəm veririk. Çünki, başlıca məqsəd gənc nəslin vətəninə, xalqına, dövlətinə sədaqətli, yüksək biliklərə, geniş dünyagörüşə malik insanlar kimi yetişməsinə nail olmaqdır. Torpaqlarımızın erməni işğalından azad edilməsi üçün bunlar son dərəcədə mühüm amillərdir. Əlbəttə, tədbirlərimizdə ziyalıların, ictimaiyyətin fəal nümayəndələrinin və media təmsilçilərinin iştirakına da mühüm əhəmiyyət veririk. Qeyd etdiyim zümrələrlə bizim səmərəli əməkdaşlığımız formalaşıb. Bizim Rəyasət Heyətinin üzvləri arasında tanınmış elm adamları, media qurumlarının rəhbərləri, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edən insanlar var.

*-Veteranların sosial müdafiəsinin gücləndirilməsi istiqamətindəki fəaliyyətinizi qənaətbəxş hesab edirsinizmi?*

-Təşkilat bu məsələdə imkanlardan maksimal yararlanmağa çalışır. Ümumiyyətlə, Azərbaycan Respublikası bu sahədə MDB məkanında fərqlənən dövlətlər sırasındadır. Veteranların sosial və hüquqi müdafiəsinin təmin edilməsi, mənzil və maddi-məişət şəraitinin yaxşılaşdırılması üzrə ardıcıl iş aparılır. Bu istiqamətlərdə fəaliyyət Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi, şəhər və rayon icra hakimiyyətləri, bələdiyyə orqanları və digər dövlət və qeyri-hökümət təşkilatları ilə qarşılıqlı əlaqədə həyata keçirilir.

Hər il respublikanın şəhər və rayonlarında yaşayan müharibə, əmək, Silahlı Qüvvələr və hüquq mühafizə orqanları veteranlarının sayı dəqiqləşdirilir. Məlumatlara görə, 2018-ci ilin fevral ayınadək İkinci dünya müharibəsi iştirakçılarının sayı 550 nəfərdən artıqdır. Onlardan 16 nəfərinin yaşı 100-dən artıqdır. Veteranların dul qadınlarının sayı təqribən 6700, məhəlli döyüş iştirakçılarının sayı 4700, arxa cəbhə veteranlarının sayı 3300, Silahlı Qüvvələr veteranlarının sayı 21900, əmək veteranlarının sayı 133.600-dür.

İl ərzində RVT-yə veteran və veteran ailələri nümayəndələrindən rəsmi surətdə yüzlərlə məktub, ərizə və müraciətlər daxil olur. Məzmununa gəlincə, bunlar ən müxtəlif sahələri əhatə edir. Onlar əsasında müxtəlif dövlət orqanlarına rəsmi məktublar, sorğular göndərilir. Bütün bu məsələlər üzrə Respublika Veteranlar Təşkilatı təbii ki, öz səlahiyyətləri dairəsində tədbirlər görməyə çalışır. Hətta bir sıra müraciətlərin bu çərçivədən kənara çıxmasına baxmayaraq, imkan daxilində məsələnin müsbət həllinə lazımı köməklik üçün səy göstərilir. Həmçinin, Təşkilata müraciət edən veteranların pozulmuş hüquqlarının bərpası istiqamətində hüquqi məsləhətlər verilir, problemlərinin həllində mümkün köməklik göstərilir.

Mərdəkan Veteranlar Xəstəxanasında bütün kateqoriyalardan olan veteranların müalicə kursu keçməsi təmin olunur. Biz tanınmış veteranların yubileylərinin keçirilməsini daim diqqət mərkəzində saxlayırıq. Ötən dövrdə bir sıra yubileylər keçirilmişdir. Ümumiyyətlə, rayon veteranlar təşkilatlarında yaşı 90-nı keçən bütün veteranların ad günləri orta məktəblərdə təntənəli surətdə keçirilir. Biz bu ənənəni, veteranlarımıza mənəvi diqqəti növbəti illərdə də davam etdirmək əzmindəyik. Veteranların yubileylərinin keçirilməsi, sağlamlıqlarının qorunması, asudə vaxtlarının səmərəli təşkili də diqqətdə saxlanılır. Belə ki, veteranların ölkənin teatrlarında, musiqi mərkəzlərində baş tutan teatr tamaşaları və konsertlərdə iştirakları təmin olunur.

*-Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi barədə nə deyərdiniz?*

-Təşkilatımız bu məsələyə mühüm diqqət göstərir. Beynəlxalq əlaqələrinin genişləndirilməsi məqsədilə MDB və İkinci dünya müharibəsi iştirakçısı olan Avropa dövlətlərinin veteran təşkilatları ilə ardıcıl yazışmalar aparılır. Biz onların tədbirlərində iştirak etməyə, yaxud keçirdiyimiz tədbirlərə onları dəvət etməyə çalışırıq. Artıq növbəti aylarda maliyyə imkanlarımız bu planların bir hissəsinin reallaşdırılmasına şərait yaratmışdır. Əlaqələrimizin ildən-ilə güclənməsində bəzi dövlət orqanlarının köməyini qeyd etmək istərdim.

Hər il qələbə günü, milli bayramlar, həmçinin ayrı-ayrı tanınmış veteranların yubileyləri ilə əlaqədar veteran təşkilatlarına təbrik məktubları göndərilir, xüsusilə MDB dövlətlərinin Bakıdakı səfirliklərinin keçirdikləri tədbirlərdə iştirak edirik.

Bu il 04-07 martda "Qələbənin Varisləri" Beynəlxalq İttifaqın dəstəyi ilə Rus Dünyası Fondunun Moskva şəhərində təşkil etdiyi "Rusiya ilə birlikdə" adlı Forumda iştirak etdim. Tədbirlərdə Azərbaycanın xüsusilə MDB ölkələrinin veteran təşkilatları ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyi, xalqların birgə nailiyyəti olan İkinci dünya müharibəsində faşizm üzərində qələbənin əldə olunmasında yaxından iştirakı, verilən digər töhfələrdən bəhs edərək, xalqlarımızın birgə tarixi keçmişinə aid ənənələrin yaşadılması zərurətini vurğuladım. 9 may qələbə gününün hər il Azərbaycanda böyük təntənə ilə qeyd olunduğu halda, bu gün 20 faizdən çox Azərbaycan ərazisini işğal altında saxlayan Ermənistanın təcavüzkarlıq siyasətini daha arxayın şəkildə davam etdirməklə qalmadığı, İkinci dünya müharibəsinin tarixini məqsədli şəkildə saxtalaşdırdığını tədbir iştirakçılarının diqqətinə çatdırdım, belə münasibətin yolverilməz olduğu qeyd etdim. Ermənilər başa düşməlidirlər ki, Azərbaycan torpaqlarını nə qədər tez tərk etsələr özlərinə bir o qədər yaxşılıq etmiş olarlar. Bizim keçirəcəyimiz beynəlxalq tədbirlərə gəlincə, bu barədə artıq qeyd etdim.

*-Siz cəbhə xəttində baş verən hadisələri daim diqqət mərkəzində saxlayır, öz mövqeyinizi ölkə mediası ilə bölüşürsünüz. Bəs, gənc zabit və əsgərlərin hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi sahəsində aparılan işlərdə iştirakınız barədə nə deyərdiniz?*

-Bu bizim diqqət mərkəzində saxladığımız başlıca vəzifələrdən biri, bəlkə də birincisidir. Dəfələrlə qeyd etmişik ki, təcavüzkar Ermənistan işğal altında saxladığı Azərbaycan ərazilərini azad etməyənə qədər heç bir Azərbaycan vətəndaşının arxayınlaşmağa haqqı yoxdur. Hər kəs öz öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirsə, Vətənin bütövlüyünə, ərazilərimizin işğaldan qurtarmasına o qədər töhfə vermiş olar. Azərbaycan Silahlı Qüvvələri bu gün düşmənin istənilən təxribatının qarşısını vaxtında almağa tam qadirdir. Bunu erməni tərəfi də yaxşı bilir. Respublika Veteranlar Təşkilatının rəhbər işçiləri müntəzəm olaraq cəbhə bölgəsinə səfər edərək hərbi hissələrin şəxsi heyəti ilə görüşlər keçirirlər. Belə görüşlərin xüsusilə gənc zabit və əsgərlərimiz üçün böyük təcrübi və mənəvi əhəmiyyəti var. Mən tez-tez cəbhə xəttində baş verən hadisələrə RVT-nin münasibətini açıqlayıram. Yaşı 95-i keçən veteranlarımız var ki, bu gün də əllərinə silah alıb gənc əsgər və zabitlərimizlə bir sırada dayanmağa hazır olduqlarını bildirirlər. Ancaq təbii ki, bizim Silahlı Qüvvələrimiz düşməni çox qısa müddətdə məğlub etməyə qadirdir və ahıllarımızdan yalnız bu işi həyata keçirəcək oğul və qızlarımıza xeyir-dua verməkdən başqa heç nə ummuruq.

*-Yerli veteran təşkilatlarının fəaliyyətinin daha uğurlu təşkili üçün hansı tədbirləri görürsünüz?*

-Nümayəndələrimiz yerli təşkilatların fəaliyyəti, veteranların vəziyyəti ilə tanış olmaq və onlara münasib köməklik göstərmək üçün bu il ölkənin 10-dan çox rayonuna ezam olunmuşlar. Onlar veteran təşkilatlarının fəaliyyətlərinin yaxşılaşdırılması üçün lazımi tövsiyələr vermiş, köməklik göstərmişlər. Belə ki, bunlar təşkilatlarda illik iş planında nəzərdə tutulan tədbirlərin vaxtında, lazımi səviyyədə keçirilməsi, komissiyalarla işin təşkili, kargüzarlıq işlərinin müvafiq təlimata uyğun aparılması, və s. məsələləri əhatə etmişdir. 2018-ci ildə bir sıra, rayon veteran təşkilatlarına yeni sədrlərin seçilməsi ilə əlaqədar hesabat-seçki konfransları keçiriləcəkdir. Bununla əlaqədar yerli icra orqanları ilə birgə iş aparılır. Bəzi rayon təşkilatlarının sədrlərinin səhhətində yaranmış problemlərlə əlaqədar və öz xahişləri nəzərə alınaraq, həmin rayonlarda da kadr dəyişiklikləri planlaşdırılır. Bir məsələni də diqqətə çatdırmaq istəyirəm. Məlumdur ki, rayon veteran təşkilatları öz işlərini yerli icra orqanları ilə qururlar və hansı rayonlarda bu əlaqələr yaxşıdır, iş də qənaətbəxşdir. Ancaq bəzi rayonlarda veteran təşkilatlarına, ümumən veteranlara münasibət heç də ürəkaçan deyil və biz bu məsələni xüsusi diqqətdə saxlayırıq. İnanırıq ki, həmin rayon icra hakimiyyətlərinin başçıları veteranlara ölkə başçısının göstərdiyi yüksək qayğı və diqqət münasibəti nümunəsindən lazımi nəticə çıxaracaqlar.

*-Cəlil müəllim, müsahibəyə görə sağ olun.*

-Sağ olun ki, Respublika Veteranlar Təşkilatını, veteranları unutmursunuz.

*Səidə*

# Tbilisidə faşizmin qəhrəmanlaşdırılmasına qarşı mübarizə mövzusunda beynəlxalq konfrans keçirilib

Martın 26-da Tbilisidə “Böyük Vətən müharibəsində Qələbənin 73-cü ildönümü ərəfəsində faşizmin qəhrəmanlaşdırılmasına qarşı mübarizə. Tarixi ədalət, yoxsa təhlükəli tendensiyalar?” mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan, Rusiya, Gürcüstan və digər ölkələrdən ekspertlər, tarixçi alimlər, müharibə veteranları, ictimai fəallar iştirak ediblər.

Gürcüstan Slavyan Xalqları Konqresinin təşkil etdiyi konfransda Cənubi Qafqazda sülhün



bərqərar olması, xüsusən də separatizm, faşizm və milliyyətçilik kimi təhlükəli tendensiyalara qaşı mübarizədən danışılıb, faşizmə qarşı birgə mübarizənin əhəmiyyəti xüsusi qeyd olunub.

Konqresin sədri Anjelika Zaxarova tədbiri açaraq dünyada, xüsusilə Cənubi Qafqazda gedən proseslər, faşizm ideologiyasının təbliği və yaranan ciddi problemlər barədə məlumat verib. O bildirib ki, əsas məqsəd iştirakçı dövlətlərin veteranları, ekspert, tarixçi və siyasətçilərinin birgə səyləri nəticəsində faşizmə qarşı birgə səmərəli mübarizə aparmaqdır. Bu cür tədbirlər davamlı olacaq, digər ölkələrdə də konfranslar, “dəyirmi masa” və dinləmələr təşkil ediləcək.

Gürcüstanın Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Birliyi idarə heyətinin sədri Tengiz Şubladze çıxış edərək ölkəsində müharibə veteranlarına göstərilən diqqət və qayğıdan söz açıb. O bildirib ki, son vaxtlar bəzi ölkələrdə faşist ideoloqlarının abidəsinin ucaldılması gənc nəslin tərbiyəsinə mənfi təsir göstərir. Odur ki, müharibə veteranları birlikdə bu cür hallara qarşı birgə mübarizə aparmalı, sağlam qüvvələri də öz ətrafında birləşdirməlidir.

Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi idarə heyətinin üzvü, polis general-mayoru Kamil Məmmədov Cənubi Qafqazda mövcud olan münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və ağır nəticələri, Ermənistan dövlətinin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti barədə ətraflı məlumat verib.

Azərbaycan Ordusunun işğal olunmuş torpaqlarımızı azad etməyə qadir və hər an hazır olduğunu vurğulayan K.Məmmədov deyib ki, buna



baxmayaraq dövlətimiz problemi sülh yolu ilə həll etmək istəyir.

Sonra Gürcüstan parlamentinin deputatı Ada Maşaniya çıxış edərək ölkəsinin müharibə, əmək və silahlı qüvvələr veteranları ilə bağlı gördüyü işlərdən danışıb, faşizmə, separatizmə və millətçiliyə qarşı birgə mübarizənin əhəmiyyətini qeyd edib.

Gürcüstan Güc Strukturları Veteranları Birliyinin sədri Nodar Çoxniaşvili, politoloq, “Patriot” informasiya agentliyinin rəhbəri Georgi İremadze, tarixçi alim Zezva Sagliani, tarixçi alim Mamuka Qoqitidze və başqaları çıxış edərək faşizm ideologiyasının gənc nəslin tərbiyəsinə mənfi təsirlərindən söz açıb, Ermənistanda faşist ideoloqu olan, Adolf Hitlerin sağ əli kimi tanınan, Böyük Vətən müharibəsi dövründə faşistlərə qarşı mübarizə aparan millətlərin nümayəndələrinə amansızlıqla divan tutmuş Qaregin Njde kimilərinə abidənin qoyulmasını kəskin tənqid ediblər. Bildirilib ki, Ermənistanda faşist Qaregin Njdeyə heykəlin qoyulması bütün xalqlara qarşı təhqirdir. Böyük Vətən müharibəsində Qələbə böyük itkilər hesabına başa gəlib və 73 il qabaq heç kim deyə bilməzdi ki, faşizm və neofaşizm nə vaxtsa bərpa oluna bilər.

Ermənistanda faşizm ideologiyasının bərpası və gənclər arasında yayılmasına cəhdlərin müşahidə olunduğunu qeyd edən natiqlər bu cür təhlükəli tendensiyalar və cəhdləri yalnız birgə mübarizə aparmaqla aradan qaldırmağın mümkünlüyünü bildiriblər. Çıxışlarda bu abidənin dağıdılması kimi bəyanatlar da səslənib.

Sonda konfransın bəyannaməsi qəbul olunub. Bəyannamədə faşizmə və faşizmin dövlət səviyyəsində təbliğinə qarşı birgə mübarizənin əhəmiyyəti vurğulanır. Konfrans iştirakçılarının faşizmə qarşı mübarizə ilə bağlı BMT-nin müvafiq sənədlərini müdafiə etdikləri xüsusi qeyd olunur. Bəyannamə BMT, Avropa İttifaqı və digər nüfuzlu beynəlxalq təşkilatlara göndəriləcək.

*Xətayi Əzizov*
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Tbilisi*

# Nizami rayon ağsaqqalları və veteranları cənab İlham Əliyevi dəstəkləyir

Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının şəhər və rayon şöbələri prezident seçkisi ilə bağlı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirirlər. Partiyanın Sədri, Azərbaycan Respublikası Prezidentliyinə namizəd İlham Əliyevin seçki kampaniyası çərçivəsində növbəti görüş Nizami rayon ağsaqqalları və veteranları ilə keçirilib.

Tədbirdə cənab İlham Əliyevin fəaliyyətinə dair YAP Nizami rayon təşkilatının hazırladığı video-çarx nümayiş etdirilib.

Sonra çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, ağsaqqallar və veteranlar ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə edən, onlara yol göstərən ağsaqqallardır: “Ümummilli lider Heydər Əliyev ağsaqqallara və veteranlara xüsusi ehtiramla yanaşır, onlara güvənirdi. Azərbaycan ağsaqqalları və veteranları ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olunmasında böyük rol oynayıblar. Bu gün də ölkəmizin həyatında ağsaqqalların və veteranların mühüm rolu var. Onlar Azərbaycanın ictimai-siyasi, elmi, mədəni həyatında fəal iştirak edirlər. Əminəm ki, ağsaqqallar və veteranlar bundan sonra da ölkəmizin ictimai-siyasi həyatında fəaliyyətlərini uğurla davam etdirəcək, 11 aprel prezident seçkilərində də fəal olacaqlar”.






Çıxış edən Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov ağsaqqaların dövlət başçısı İlham Əliyevin namizədliyini dəstəklədiyini vurğulayıb: "Heydər Əliyev yolunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan inkişaf edir, ölkədə sabitlik mövcuddur. Prezident İlham Əliyev hələ uzun müddət bu uğurlu yolu davam etdirəcək. Azərbaycanın dünya arenasında nüfuzunun daha da artırılması üçün böyük, yorulmaz dövlət xadimi lazımdır və cənab İlham Əliyev də məhz belə şəxsiyyətdir. Azərbaycan Ağsaqqallar Şurası olaraq xalqımızı və Nizami rayon sakinlərini bir daha prezident seçkilərində cənab İlham Əliyevi dəstəkləməyə dəvət edirik".

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək söyləyib ki, Azərbaycanı düşünən, sevən hər bir insan bilir ki, bu gün Prezident İlham Əliyevin apardığı siyasət Heydər Əliyev siyasətinin davamıdır: “Əgər istəyiriksə ki, balalarımız, nəvələrimiz firavan, stabil bir ölkədə yaşasın, qan-qadadan uzaq olsun, hər kəs cənab İlham Əliyevin namizədliyini dəstəkləməlidir. Cənab İlham Əliyevin gördüyü işlər göz qabağındadır. Ona görə də, prezident seçkilərində cənab İlham Əliyevin alternativi yoxdur. Biz cənab İlham Əliyevə səs verməklə Azərbaycanın firavanlığına, stabilliyinə səs verəcəyik".

Tədbirdə çıxış edən Azərbaycan Ağsaqqallar Şurasının Nizami rayon şöbəsinin sədri Mayıl Əliyev, Respublika Veteranlar Təşkilatının Nizami rayon şöbəsinin sədri Yəhya Ağayev, gənclər adından Nicat Dağlar və başqaları çıxış edərək son illərdə Azərbaycanın dünyada sürətli inkişaf edən dövlətə çevrildiyini, dövlət başçısının həyata keçirdiyi tədbirlər sayəsində bütün sahələrdə uğurlar qazanıldığını vurğulayıblar.

Qeyd edilib ki, bu gün Azərbaycanda ağsaqqalların və veteranların ictimai-siyasi fəallığının təmin edilməsi üçün hər cür şərait yaradılıb. Xüsusən gənc nəslin tərbiyəsində onların rolu yüksək qiymətləndirilir. Bildirilib ki, ağsaqqallar və veteranlar qarşıdan gələn prezident seçkilərində ölkəmizin dinamik inkişafını təmin edən ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran cənab İlham Əliyevin namizədliyini dəstəkləyir, cəmiyyətimizin bütün üzvlərini onun ətrafında sıx birləşməyə çağırırlar.

# 31 mart-silinməz yaddaş



Tarixdə neçə-neçə faciəvi, qanlı çarpışmaların şahidi olmuş Azərbaycan torpağı və onun övladları 1918-ci ilin 31 mart soyqırımını heç vəchlə yaddan çıxarmamalıdırlar. Çünki, millətin özünü dərk etməsi, onun öz tarixinə necə münasibət bəsləməsindən asılıdır. 1918-ci ilin martın son günləri təbiətin ılıq bahar nəfəsi kimi deyil, martın sərt sazanaqlı soyuq havası kimi yaddaşımızda qalması oldu. Erməni bolşevik və qaniçənlərinin məsum Azərbaycan əhalisini minlərlə qanlı qurbanlar verməyə məcbur etməsi hansı zərurətdən irəli gəlirdi? Özgəsinin torpağında torpaq sahibinə qəsd etmək, divan tutmaq, çörəyini yediyi məmləkətə qarşı nankorluq və xəyanətkarlıq deyildimi? Düşməni qarşısına müti, dostu qarşısında azğın olan erməni xisləti öz tərəfsizliyinin intiqamını alırdı bizdən? Bu müharibə deyildi. Bu ədalətsizliyin haqq üzərində qələbəsi cəhdi, vəhşiliyin humanizm üzərində, bədbəxtliyin təmsilçisi olan iblislərin xoşbəxtlik mələkləri üzərindəki qələbəsi, ən nəhayət çirkinliyin gözəllik üzərindəki qələbəsi idi. Şükürlər olsun ki, fani dünyada hər şey keçici olduğu, axıb dəyişdiyi kimi qaranlığın, zülm və zülmət səltənətinin də işıq üzərindəki qələbəsi də çox uzun sürməmişdir. Bakının tarixi abidələrini məhv etməyə çalışan erməni quldurları insanlıq hissindən məhrum idilərmi?

Qonşularımızın Azərbaycan mədəniyyətinə qarşı dəhşətli allergiyası onun özünün xəstəliyindən mənəvi aləminin çirkinliyindən xəbər verirmi? Azərbaycan kəndlərini və şəhərlərini qanla sulayan erməni başıpozuqları öz doğma obalarını öz önünə gətirib niyə insafa gəlmirlər?! Yoxsa insanlığın bu ali mənəvi hissi onlara yaddır?!... Ermənilər günah törədib cəzasını gələcək nəsilləri üçün saxlamışdırlar. Gələcəkdə ermənilərin öz ata-babalarının qana bulanmış əllərini görmək ilahi necə ağırdır?!

Bugün Azərbaycan oğulları ruh düşkünlüyündən, bədbinlik zolağından çıxaraq azadlıq uğrunda mübarizəyə müntəzir durmuşlar. İndi onların yenilməz bir sərkərdəsi və müdrük ağsaqqalları vardır. Tarix əsrin əvvəllərində ölkəmizə onlarla dəyərli şəxsiyyətlər bəxş etmişdir.

Onlar millətlərinin azadlığı və xoşbəxtliyi uğrunda mübarizə apararaq öz adlarını nəsillərin yaddaşına yazdılar. Lakin onlar millətin xoşbəxtliyini və azadlığını uzun müddət görə bilmədilər. Əsrin sonlarında Tanrı bizə Heydər Əlirza oğlu Əliyevi göndərdi. Göndərdi ki, çətinliklərə, təzyiqlərə sinə gərərək Azərbaycan torpağının sülhsevərliyini təsdiq etsin. İndi Azərbaycan oğulları yaxşı başa düşürlər ki, onlar Qarabağ uğrunda döyüşlərdə məğlub olmayıblar. Xəyanətkarlığın satqınlığın qurbanı olublar. İndi isə ulu öndərin yolunu cənab Prezidentimiz İlham Əliyev davam etdirir. Onun xalq qarşısında bircə çağırışı kifayətdir ki, vətən övladları köhlən at üzərinə qalxsın və Odlar Yurdunu basqınçılardan təmizləsin. Azərbaycanlılar öz sərgərdəsinin simasında qeyrət, qürur və qüdrətlərini görürlər.

Şəhla Qarayeva

# Respublika Veteranlar Təşkilatında 31 Mart Azərbaycanlıların soyqırımı günü münasibəti ilə anım tədbiri keçirilmişdir

29 mart 2018-cı il tarixdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında 31 Mart Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbir başlamazdan əvvəl Soyqırım qurbanlarının və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə müharibə, əmək və Silahlı Qüvvələr veteranları, Respublika Veteranlar Təşkilatı Mərkəzi Aparatının əməkdaşları iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov açmışdır. O demişdir: "Bu gün mart soyqırımının törədilməsindən 100 il ötür. 1918-ci ilin 30 mart-3 aprel tarixləri arasında Bakı şəhəri və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Səlyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişlər. Rəsmi mənbələrə əsasən soyqırımın nəticəsində təkcə Bakı şəhərində 12 mindən çox azərbaycanlı qətlə yetirilmiş, minlərlə insan itkin düşmüşdür. Biz həmin soyqırımın və sonrakı illərdə ermənilərin tərəfindən törədilmiş qətliamlar barədə bütün dünyanı, xüsusilə beynəlxalq təşkilatları, elmi mərkəzləri məlumatlandırmalı, dünya ölkələrinin parlamentlərini, müvafiq dövlət orqanlarını bu məsələyə obyektiv, rəsmi münasibət bildirmələrinə nail olmalıyıq".

Respublika Veteranlar Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək demişdir: "Bu soyqırımın təməli 2 əsr öncədən qoyulmuşdu. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 19-cu əsrin əvvəllərindən etibarən ilk öncə çar Rusiyası, sonra Sovet İmperiyasının dəstəyi ilə azərbaycanlıları min illərlə yaşadıqları dədə-baba torpaqlarından zor gücünə kütləvi surətdə çıxararaq Azərbaycan ərazilərində özlərinə dövlət qurmuşlar. Nəhayət 1948-1953-cü və 1988-ci deportasiyasından sonra qədim türk yurdlarında monoetnik Ermənistan yaradılmışdır.

Ermənilər tərəfindən Azərbaycanlı soyqırımları xüsusən 20 əsrdə daha böyük vüsət almışdır. 1905-1907-ci illərdə Bakıda, Azərbaycanın digər ərazilərində və indi Ermənistan adlanan torpaqlarda azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirimişdir. Yüzlərlə yaşayış məntəqəsi dağıdılmış, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir.




Bakıda hakimiyyəti ələ keçirən bolşevik Stepan Şaumyanın bolşeviklərlə erməni millətçilərinin əməkdaşlığına nail olması ilə hələ 1918-ci ilin yanvarında həmin qırğınlara cəhd edilmiş, lakin Nəriman Nərimanov və başqalarının səyi nəticəsində onların yanvar planı baş tutmamışdı. 1918-ci ilin mart ayından çar ordusundan tərxis olunan silahlı erməni dəstələri Azərbaycanın müxtəlif yerlərində talanlara başlamışdılar. Təxminən 7 min erməni əsgəri və 70%-i ermənilərdən ibarət olan "Qırmızı Qvardiya" adı altında yaradılan 10-12 minlik ordu müxtəlif cəbhələrdən Bakıya gətirilmişdi. Bolşevik-erməni koalisiyası təqribən 20 minə yaxın qoşunla iyun ayında Azərbaycan Xalq Cümhuriyyəti hökumətini məhv etmək məqsədilə Gəncə istiqamətində cəbhə boyu hücuma keçmişdi. Ancaq tərkibi türk və azərbaycanlı əsgərlərdən ibarət olan Qafqaz İslam Ordusunun səyləri nəticəsində bu qara niyyətin qarşısı alındı. Bakı da daxil olmaqla Gəncə istiqamətində bütün ərazilər azad edildi".

Mart soyqırımının araşdırılması barədə danışan məruzəçi daha sonra demişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası 1918-ci il iyulun 15-də mart hadisələrini təhqiqi məqsədilə xüsusi Fövqəladə İstintaq Komissiyası yaratmışdır. Komissiyanın hesabatında qanlı hadisələr zamanı ölənlərin sayının 20 mindən çox olduğu bildirilirdi. Həmin vaxt həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün həmçinin Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılmışdı.

1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və iki əsrə yaxın davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi.

Nəhayət ermənilərin Azərbaycanlılara qarşı soyqırımı törətməsinə Ulu öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə siyasi qiymət verildi. Həmin tarixdə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir".

Tədbirdə digər çıxışlarda 31 mart hadisələri ilə yanaşı, həmçinin ermənilərin xalqımıza qarşı 20-ci əsrdə törətdiyi sonuncu Xocalı soyqırımı barədə də danışılmış, ermənilərin Dağlıq Qarabağda başladığı qəsbkarlıq nəticəsində bir milyondan artıq soydaşımız öz doğma yurd-yuvalarından didərgin salınması, ərazimizin 20 faizinin işğal olunması və bu günədək işğal altında saxlanıldığı qeyd edilmişdir.

# 1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə əlaqədar beynəlxalq elmi konfrans işə başlayıb



1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə əlaqədar martın 29-da Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində beynəlxalq elmi konfrans işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının və DTX-nin təşkilatçılığı ilə keçirilən "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi. Müasir dövrdə soyqırımı, hərbi təcavüz və etnik təmizləmə siyasəti" mövzusunda konfransa Azərbaycan ilə yanaşı, bir neçə ölkədən tanınmış alimlər qatılıblar.

Konfransda soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Dövlət Komissiyasının katibi, işçi qrupunun rəhbəri İsmayıl Axundov tədbirdə çıxış edərək ermənilərin iki əsrə yaxın müddətdə Azərbaycan xalqına qarşı həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasəti barədə məlumat verib. Diqqətə çatdırıb ki, "böyük Ermənistan" yaratmaq xülyasında olan erməni daşnakları bu məqsədlərini reallaşdırmaq üçün Azərbaycan, Türkiyə, İran, Gürcüstan ərazilərində müxtəlif cinayətlər, soyqırımları törədiblər. Bu soyqırımlarının arasında fəlakətin genişliyinə görə ən dəhşətlisi 1918-ci ilin mart soyqırımı olub. Erməni daşnakları və silahlı quldur dəstələri həmin vaxt təkcə Azərbaycanda on minlərlə dinc insanı qətlə yetirib, minlərlə yaşayış məntəqəsini yerlə-yeksan ediblər. Faciədən iki ay sonra qurulan Azərbaycan Xalq Cümhuriyyəti bu soyqırımının dəhşətlərini araşdırmaq üçün genişmiqyaslı təhqiqat işlərinə başlayıb. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılıb və ona lazımi siyasi-hüquqi qiymət verilməyib.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalayıb. Sonrakı proseslərdə Qubada kütləvi məzarlığın aşkarlanması erməni terrorçu-quldur dəstələri tərəfindən törədilən soyqırımının dəhşətlərini və geniş coğrafiyasını bir daha təqdim edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan xalqına qarşı soyqırımı siyasətini davam etdirən erməni terrorçu-silahlı dəstələri və hərbi birləşmələri 1980-ci illərin sonlarında-1990-cı illərin əvvəllərində ölkəmizin ərazisinin 20 faizini işğal edib, 1992-ci ilin fevralında Xocalıda qanlı terror aktı törədiblər. İsmayıl Axundov Dövlət Komissiyasının ermənilərin törətdikləri qanlı cinayətlər və soyqırımları ilə bağlı araşdırmalar apararaq, ortaya çıxarılan faktların dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində genişmiqyaslı fəaliyyət həyata keçirdiyini bildirib.

Yeni Türkiyə Strateji Araşdırma Mərkəzinin direktoru, professor Kamal Çiçək çıxışında beynəlxalq ictimaiyyəti soyqırımına məruz qalmaları barədə uydurma yalanlarla çaşdırmağa çalışan ermənilərin Qafqaz bölgəsində törədilən soyqırımların əsas səbəbkarları və iştirakçıları olduqlarını qeyd edib. Ermənistanın qurulduğu andan etibarən daim millətçi, şovinist və etnik təmizləməyə əsaslanan siyasət yürütdüyünü vurğulayan professor təəssüflə bildirib ki, bu soyqırımı və etnik təmizləmə siyasəti bu gün də davam etdirilir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun professoru Solmaz Rüstəmova-Tohidi konfransda "XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş soyqırımı barədə" mövzusunda çıxış edərək soyqırımının dəhşətlərindən danışıb, bu faciənin miqyasının öyrənilməsi ilə əlaqədar Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Fövqəladə Təhqiqat Komissiyasının qurulduğunu və genişmiqyaslı araşdırmalar aparıldığını bildirib. Qeyd olunub ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılıb. Yalnız Azərbaycanın müstəqilliyinin bərpasından sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə bu soyqırımına dair geniş araşdırmalar aparıldı, həqiqətlər ortaya çıxarıldı və 31 mart soyqırımına lazımi qiymət verildi.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il yanvarın 18-də 31 mart - azərbaycanlıların soyqırımının 100 iliyi ilə əlaqədar genişmiqyaslı tədbirlərin keçirilməsi barədə Sərəncam imzaladığını, müvafiq Tədbirlər Planının hazırlandığını bildirib. O, ermənilərin həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində dinc azərbaycanlıların qətlə yetirilməsi ilə yanaşı, xalqımıza aid qədim tarixi-mədəni abidələrin də məhv edildiyini vurğulayıb. Bildirib ki, Ermənistandan fərqli olaraq, Bakının mərkəzində erməni kilsəsi Azərbaycan dövləti tərəfindən mühafizə olunur.

Açılış çıxışlarından sonra konfrans işini bölmə iclasları ilə davam etdirib.

AZƏRBAYCAN VETERANI



06-07 (101-102) 31 mart 2018-ci il

# AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİ - 100

# Fətəli xan Xoyski

əvvəli ötən sayımızda

28 may 1918-ci il. Vətən tarixinin ən müqəddəs və şərəfli günlərindən biri. Neçə min illik dövlətçilik tarixi olan, ancaq son bir neçə yüz ili İran, Rusiya və s. dövlətlərin əsarəti altında inləyən Azərbaycanın bir qrup həqiqi vətənpərvər və qeyrətli övladı Tiflis şəhərində ona öz tarixi haqqını geri qaytarmaq təşəbbüsündə bulundular. Onların sonsuz fəxarət duyğuları oyadan, qəlbləri riqqətləndirən əməllərinin nəticəsi 6 mübarək bənddən ibarət olan Azərbaycanın İstiqlalını mübəyyin Əqdnamə adlanırdı: "Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyəti-hazıreyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarşi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor. (ARDA, f. 970, s.l, iş 4, v.1-2).

Bu addımla bahəm Azərbaycan Nazirlər Şurası öz işinə başlamış, kabinetin sədrliyi artıq siyasi dairələrdə nüfuzlu şəxs kimi tanınan Fətəli Xan Xoyskiyə həvalə olunmuşdu. Müstəqilliyin elan olunmasının səhəri günü Azərbaycan Milli Şurasının yığıncağında çıxış edən yeni hökumətin ilk başçısı qarşıda duran vəzifələrdən, konkret əməli işlərdən (ARDA, f.970, s.l, iş 1, v.51.) danışırdı. Bu əməli fəaliyyətin ilk nəticələrindən biri kimi 1918-ci il may ayının 30-da Xoyskinin imzası ilə dünyanın aparıcı dövlətlərinin paytaxtlarına, Konstantinopol, Berlin, Paris, Vyana, Roma, London, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Moskva, Haaqa, Madrid, Stokholm, Kiyev, Oslo, Kopenhagen, Tokio şəhərlərinə, həmin ölkələrin xarici işlər nazirlərinə radioteleqram göndərildi: "Zaqafqaziya Federativ Respublikasının dağılması, Gürcüstanın ondan çıxması ilə Azərbaycan Milli Şurası 28 may 1918-ci ildə Azərbaycanın müstəqilliyini elan etmişdir... Sizi bununla bağlı xəbərdar etməklə, Zati Alilərinizdən bu barədə öz hökumətinizə məlumat çatdırmağınızı xahiş edirəm. Hökumət müvəqqəti olaraq Gəncə şəhərində yerləşir. Xoyski - Azərbaycan Respublikası Nazirlər Şurasının sədri. (ARDA, f.970, s. 1, iş 5, v. 1).

Azərbaycan Milli Şurası ilə bərabər respublikanın müstəqilliyi yolunda real addımlar atmaq üçün ilk günlərdən geniş əməli işlərə başlayan, fəaliyyətini quracağı dövlətin hüdudları daxilinə keçirməsi üçün möhkəm zəmin yaratmağa çalışan birinci hökumət iyun ayının 16-da öz məqsədinə nail oldu. Azərbaycan hökumətinin Tiflisdən Gəncəyə köçməsi ilə öz faktiki missiyasını uğurla yerinə yetirmiş Azərbaycan Milli Şurası səhəri gün fəaliyyətini dayandırdı və səlahiyyətlərini müəyyən dövr ərzində yeni təşkil edilmiş Azərbaycanın ikinci hökumətinə verdi. Yeni hökumətin fəaliyyətə başladığı 17 iyun 1918-ci ildə AR Nazirlər Şurasının Azərbaycan əhalisinə müraciətində deyilirdi: "Azərbaycanın müstəqilliyi ilə əlaqədar müqəddəs arzu həyata keçmişdir. Biz inanırıq ki, millətimizin sarsılmaz iradəsi və bizim həmmillətimiz və həmdininiiz olan Osmanlı imperiyasının dəstəyi ilə Vətənimizin xoşbəxt gələcəyi təmin olunacaqdır. Bununla yanaşı, indiki vəziyyətdə gənc respublikamızı həm xaricdən, həm də daxildən ciddi təhlükələr təhdid edir... Belə məsul vəziyyətdə öz üzərinə ölkənin idarə edilməsi kimi ağır bir vəzifə götürmüş Azərbaycan hökuməti ona dövlət orqanlarını vahid əldə cəmləşdirməyə imkan vermək üçün bütün vətəndaşlardan öz gündəlik fəaliyyətləri ilə məşğul olmaqla idarəçilik işinə mane olmamağa çağırır. Bununla hökumət Vətənin səadəti və xilası naminə hökumət qərarlarını yerinə yetirməkdən yayınan şəxslərə qarşı ən sərt təxirəsalınmaz tədbirlər görəcəkdir. Hökumətin ən yaxın vəzifələrindən biri bütün hökumət müəssisələrinin, məhkəmə və məktəblərin milliləşdirilməsidir. Ancaq bu iş dövlət aparatını dağıtmadan, tədricən həyata keçiriləcəkdir. Hökumət ayrıca qərarların qəbuluna qədər bütün hökumət xidmətindən olanları öz əvvəlki yerlərində qalıb işlərini davam etdirməyə dəvət edir. Hökumət milliyyətindən və dinindən asılı olmayaraq Azərbaycanın onun bütün vətəndaşlarının həqiqi vətəni olması üçün bütün tədbirləri görəcəkdir. Bütün əhali qruplarına öz hüquqlarının müdafiəsində o, hərtərəfli dayaq olacaqdır. (ARDA, f 895, s.l, iş 29, v.l).

Bu tarixi müraciətdən 5 ay sonra 17 noyabr 1918-ci ildə saat 13.30-da Azərbaycan Milli Şurası yenidən fəaliyyətə başladı. İlk müstəqillik dövrünün ən ağır və məsuliyyətli günlərində özünü doğrultmuş bu qurumun üzvlərinin bir araya yığılması təsadüfi deyildi. Məqsəd onun artıq əməli işdə sınanmış tərkibi əsasında Azərbaycanda qanunvericilik orqanının yaradılması, Azərbaycanın Parlamentli idarə üsuluna malik respublika kimi formalaşdırılması idi. Şuranın açılışında çıxış edən Fətəli Xan hökumətin 5 aylıq fəaliyyətini belə qiymətləndirmişdi: "Biz öz vəzifələrimizin icrasına başlayanda ölkədə anarxiya hökm sürürdü, maliyyə sahəsində olduğu kimi, hərbi və daxili sahələrdə də. Ən başlıcası bizim paytaxtımız öz əlimizdə deyildi və hökumətin vəziyyəti ağır idi. Allaha şükürlər olsun ki, indi anarxiya aradan qaldırılıb və həyat normal axarına düşüb. Biz maliyyə vəziyyətini nizama salmış, ölkədə qayda-qanunu qorumağa yetəcək qədər ordumuzu təşkil etmişik. ("Azərbaycan qəzeti 1918-ci il 17 noyabr).

Fətəli Xan Xoyskinin Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu yolundakı xidmətləri barəsində dövlət arxivlərində kifayət qədər tədqiq edilməmiş faktiki material, indiyədək haqqında xalqa lazımınca məlumat verilməmiş tarixi sənədlər var. Bunların qətiyyən mübaliğə olmadığına yəqin ki, heç bir azərbaycanlının qəlbində şübhə yoxdur. Ancaq bu da bir həqiqətdir ki, dövlət xadimi, böyük şəxsiyyət barəsində də ən doğru bilgilər bir çox hallarda içində yaşadığı dövrün ona göstərdiyi münasibətdə, verdiyi qiymətdə də öz əksini tapır. Müstəqil Azərbaycan dövrünün aynasında Fətəli Xanın necə göründüyü aşağıdakı məqamlarda öz dolğun əksini tapıb.

Azərbaycan Parlamentinin 1918-ci il dekabr ayının 7-də fəaliyyətə başlaması ilə gündəmə respublikada yeni hökumətin təşkili kimi son dərəcə aktual bir məsələ çıxmışdı. Müstəqilliyin əldə olunmasından ötən 6 ay 10 gün ərzində Azərbaycanda iki hökumət qurulmuş, bunların hər ikisinə Fətəli Xan sədrlik etmişdi. Ancaq 3-cü hökumət bir qədər fərqli prinsiplər əsasında formalaşdırılmalı, ali qanunverici orqan - Parlament qarşısında cavabdehlik daşımalı, onda təmsil edilən fraksiyaların ümumi razılığı ilə öz işinə başlamalı idi. Dekabr ayının 10-da məhz bu məsələni müzakirə üçün toplaşmış ilk parlament üzvlərimizin hökuməti kimin təşkili edəcəyi ilə bağlı çox asanlıqla yekdil rəyə gəlmiş və Parlamentin sədr əvəzi Doktor H.Ağayevin Fətəli Xan Xoyskiyə Nazirlər Şurasının sədri postunu tutması ilə bağlı 13 dekabr 1918-ci ildə məktubla müraciət etmişdi: "Azərbaycan Parlamentinin bu il dekabr ayının 10-da keçirilən iclasında mənə yeni kabineti təşkil etmək üçün Baş Naziri seçmək və dəvət etmək tapşırığı verilmişdir. Fraksiyaların arzusu, həmçinin siyasi təcrübəyə, Sizin Vətənə və millətə xidmət işində göstərdiyiniz görkəmli fəaliyyətiniz və fədakarlığınıza görə mən Sizdən bü mühüm və çətin işi öhdənizə götürməyi, Baş nazir vəzifəsini qəbul etməyi və koalisiyalı kabinet yaratmağı xahiş etməyi özümə borc bilirəm. Xahiş edirəm mənim səmimi hörmət və ehtiramımı qəbul edəsiniz. Parlament sədri əvəzi: doktor Ağayev.

Əlbəttə, Parlamentin yekdil şəkildə dəvəti kimi yüksək bir etimaddan, millətin sayılıb-seçilən insanları tərəfindən belə dəyərləndirilməkdən daha böyük qiymət ola bilməzdi və bu etiraflar qarşısında hədsiz məmnunluq və minnətdarlıq duyğusu keçirmək, bu dəvəti düşünmədən qəbul etmək təbiidir. Ancaq bəlkə də Fətəli Xan yeganə insanlardan idi ki, millətə xidmət hissini hansısa vəzifə tutmaqla, səlahiyyət sahibi olmaqla bağlamırdı və o, ən sıravi vətəndaş kimi də bu yolda hər cür fədakarlıq göstərməyə, həyatını və sağlamlığını canından artıq sevdiyi Vətəninə verməyə hazır idi. O, bütün bunlara qəti əmin olduğu və hazırda son dərəcə məsuliyyətli bir dövrdə təklif olunan yüksək postu tutmağa səhhətinin imkan vermədiyi üçün çəkinmədən bu təklifdən imtina etmişdi. Məktubu aldığı günün səhəri Fətəli Xan Xoyski öz cavab məktubunu yazırdı:

"Çox hörmətli Həsən bəy! Dünən mən Sizin məktubunuzu aldım. Həmin məktubda Siz bildirirsiniz ki, mənim Vətənə və millətə xidmət işində göstərdiyim keçmiş fəaliyyəti və Parlament fraksiyalarının arzusunu nəzərə alaraq, Parlament qarşısında cavabdeh olan yeni koalisiyalı kabinet təşkil etməyin kimə həvalə olunması seçimi ilə əlaqədar mənim namizədliyim üzərində dayanmısınız. Mənə göstərilən bu yüksək etimada görə dərin minnətdarlığımı bildirir, eyni zamanda çatdırıram ki, səhhətimin ciddi surətdə pozulması səbəbindən bu vəzifəni öz üzərimə götürə bilməərəm, bununla yanaşı lazım gəldikdə bütün qüvvəmi xalqa xidmət işinə sərf etməyi özümə daim mənəvi borc sayacağam. İmkandan istifadə edərək mənim dərin minnətdarlığımı və sədaqətimi qəbul etməyinizi xahiş edirəm. F.X.Xoyski. ("Azərbaycan qəzeti 1918, 15 dekabr).

Buna baxmayaraq 18 dekabrda Həsən bəy Fətəli Xan Xoyskiyə Nazirlər Şurasının sədri olmaq, koalisiyalı kabinet yaratmaq xahişi ilə yenidən müraciət edir: mən ikinci dəfə xalq adından Sizə müraciət edirəm, Vətən üçün belə ağır bir vəziyyətdə hökumət qurmaq kimi məsuliyyətli işdən imtina etməyəsiniz və öz üzərinizə koalisiyalı kabinet təşkil etmək vəzifəsini götürəsiniz. Ümid edirəm ki, mənim xahişimi yerinə yetirəcəksiniz, belə ki, Parlament fırqələri yekdil olaraq Sizin namizədliyiniz üzərində dayandılar və Sizi bu postda görməyi israrlı arzu edirlər.

Bu məktubu öz səhifələrinə çıxaran "Azərbaycan qəzeti 1918-ci il 21 dekabr sayında oxucularına belə bir məlumat verir ki, Fətəli Xan bu israrlı dəvətlərdən sonra hökumət təşkil etməyi öz üzərinə götürdü. Bütün bunlar Fətəli Xanın hökumət başçısı kimi, doğrudan da, əvəzedilməz şəxs olduğunu göstərirdi və zəmanəsinin görkəmli dövlət xadimləri onu məhz bu cür şəxsiyyət saydıqlarını qətiyyən gizlətmir, belə bir insanla çiyindaşlıq etməkdən qürur duyurdular. Hökumətin başında durduğu zaman etibarı ilə əslində çox qısa, görülən işlərin həcminə görəsə həsəd və heyrət doğuran müddətdə Azərbaycanın daxili və xarici siyasət məsələləri ilə bağlı problemləri necə həll olunmuşdu?

F.X.Xoyski 1918-ci il dekabr ayının 7-də Azərbaycan parlametinin açılışında söylədiyi nitqində sanki bu suala cavab



verib: "Bu günkü müqəddəs gündə ölkəmizin taleyinin öz əlimizdə olduğu bir vaxtda hökumət adından hörmətli parlament üzvlərini salamlayıram". O, hökumətin 6 ay ərzində Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi sahəsində görülmüş çox böyük işlərdən danışır və xüsusilə ölkədə anarxiyanın aradan qaldırılmasını qeyd edir. Özü də bütün bunlar "hökumətin heç bir qoşuna və vasitəyə malik olmadığı şəraitdə həyata keçirilmişdir, - deyir. "Altı ay ərzində biz ölkəni anarxiya və xaosdan çıxarmaq üçün fəaliyyət göstərmişik: qayda-qanun yaratmış, polis təsis etmiş, məhkəmə qurmuş, dəmiryolunda hərəkəti bərpa etmiş, az-çox dərəcədə poçt-teleqraf və digər müəssisələrin işlərini qaydaya salmış, ölkəni maliyyə çətinliyindən çıxarmışıq... Doğrudur, işimizdə çatışmazlıqlar və nöqsanlar çoxdur. Ancaq nəzərə alın ki, bu işlər son dərəcə gənc, çoxillik dövlətçilik təcrübəsinə, bundan əlavə heç bir vasitəyə və real gücə malik olmayan bir hökumət tərəfindən görülmüşdür. Yuxarıda qeyd olunanları yerinə yetirdikdən sonra hökumətin qarşısında başqa, daha mühüm və daha çətin vəzifə Azərbaycanın paytaxtı Bakı şəhərinin onu xəyanətkarcasına işğal etmiş, xalqların azadlığı və qardaşlığı və s. barədəki hay-küyləri Bakılı müsəlman kişiləri və qadınları məhv etmək hərəkətləri ilə uyğun gəlməyən partiyadan (müdafiəsiz bakılılar soyqırımından canlarını qurtarıb İrana, Dağıstan dağlarına qaçmış, müxtəlif ölkələrə dağılıb alçaldıcı qaçqın həyatı yaşamışdılar) geri alınması durudu. Bu mühüm və çətin vəzifə hökumətin müraciət etmək məcburiyyətində qaldığı Türk qüvvələrinin köməyi ilə hökumət tərəfindən yerinə yetirildi...Biz bacardığımız qədər hər şeyi etdik, ola bilər ki, səhvlərə də yol verdik, ancaq işlədik, yalnız bir məqsədlə - Vətənin rifahı naminə çalışdıq. ("Azərbaycan qəzeti 1918-ci il, 10 dekabr).

Həmin nitqində Fətəli Xan mövcud çətinliklərlə üzləşən gənc dövləti dalğalar qoynunda yırğalanan qayıqla müqayisə edərək deyir ki, bu qayığı qayalar arasından elə keçirmək lazımdır, o, büdrəməsin və daşlara toxunub parçalanmasın.

Fətəli Xan və Cümhuriyyətin digər rəhbərləri Bakının alınmasını müstəqilliyə bərabər bir addım kimi qiymətləndirir və bu qənaətlərində qətiyyən mübaliğəyə yol vermirdilər. Çünki o dövrdə dünyanın neft sənayesi üzrə ən mühüm mərkəzlərindən biri olan bu şəhərin müstəqil dövlətin paytaxtına çevrilməsinin gənc respublikanın mövcudluğu üçün həm çox böyük siyasi, həm də iqtisadi əhəmiyyəti vardı. Bütün Zaqafqaziyada az qala diqqətini tamamilə Bakıya yönəltmiş Qərbin dəstəyinə nail olunması bu şəhərin onu işğal etmiş düşmən qüvvələrin əlindən təcili surətdə geri alınmasını tələb edirdi və Azərbaycanın gənc dövləti bu mühüm missiyanı şərəflə yerinə yetirməyi bacardı.

**Lətif Şüküroğlu**

*Ardı növbəti sayımızda*

AZƏRBAYCAN VETERANI

# Milli Qəhrəman Vəzir Orucovun xatirəsi anılıb

Azərbaycanın Milli Qəhrəmanı Vəzir Orucovun şəhidlik zirvəsinə ucalmasından 25 il ötür. Bu münasibətlə Tərtər şəhərində Milli Qəhrəmanın xatirəsi anılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə Vəzir Orucovun ailə üzvləri və döyüş dostları, rayon ictimaiyyətinin nümayəndələri Tərtər şəhərində Şəhidlər abidə kompleksi və Milli Qəhrəmanın barelyefi önünə əklil və gül-çiçək qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Mədəniyyət Mərkəzində davam edən tədbirdə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Milli Qəhrəmanın mənalı həyat və qəhrəmanlıqla dolu döyüş yolundan danışıb. Məlumat verilib ki, Vəzir Orucov 1956-cı ildə Tərtərin Xoruzlu kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1974-cü ildə Bakı Yüngül Sənaye Texnikumuna daxil olub, təhsilini və hərbi xidməti başa çatdırdıqdan sonra 1984-cü ildən 1992-ci ilə qədər Rusiyanın Arxangelsk vilayətində yaşayıb. Ermənilərin torpaqlarımıza hərbi təcavüzü başlayanda V.Orucov Azərbaycana qayıdıb, Tərtər özünümüdafiə batalyonuna yazılıb. 1992-ci ilin sentyabrında Çıldıran kəndi uğrunda gedən döyüşlərdə ağır yaralanıb, 1993-cü il yanvarında tam sağalmasa da, yenidən cəbhəyə qayıdıb. Ağdərədə gedən döyüşlərdə cəsurluq göstərib, qorxmazlığı ilə döyüş yoldaşlarına nümunə olub. Döyüşlərdəki şücaətinə və komandirlik




bacarığına görə batalyon komandirinin müavini vəzifəsinə qədər yüksəlib. Vəzir Orucov 1993-cü il martın 22-də Ağdərə bölgəsindəki yüksəklik uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olub. Bakıda Şəhidlər xiyabanında dəfn edilib. 1993-cü il martın 27-də ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışan natiq bildirib ki, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri mənzil və avtomobillərlə təmin olunur. Tərtər şəhərinin mərkəzi küçələrinə Azərbaycanın Milli Qəhrəmanları Vəzir Orucovun, Mübariz İbrahimovun, "Azərbaycan Bayrağı" ordenli Mehrac Mahmudovun, şəhid İlqar Həsənovun və Nicat İsgəndərovun adları verilib.

Tərtər özünümüdafiə batalyonunun keçmiş komandiri Pənah Məmmədov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin rayon şöbəsinin sədri Suliddin Yusifov, Tərtər Cümə Məscidinin axundu Sadiq Cəfərov və başqaları çıxış edərək, Milli Qəhrəmanın torpaqlarımızın müdafiəsində göstərdiyi şücaətlərdən danışıblar.

Uşaq-Gənclər İnkişaf Mərkəzinin şagirdləri vətənpərvərlik mövzusunda müxtəlif kompozisiyalarla çıxış ediblər. Tədbirin sonunda Tərtər özünümüdafiə batalyonuna həsr olunmuş "Batalyon" filmi göstərilib.

# Odlu səngərlərdə mərd döyüşçü kimi vuruşdu...

*"Əvvəla salam. Əziz anam, necəsən? Özünü necə hiss edirsən? Təki yaxşı ol. Mən sağ-salamatam. Ana, mən 9 aydan çoxdur Qarabağdayam. Burada çox şey görmüşəm. Mən ölümlə çox rastlaşmışam burada. Ancaq Allah saxlayanda saxlayır. Mən ölümdən qorxmuram, ölənlərdən nə artığam, nə də ki, əskik..."*.

Bu cümlələr şəhid hərbi qulluqçumuz əsgər Rəhmanov İlqar Oqtay oğlunun ön cəbhədən ailəsinə göndərdiyi son məktublardan birində yazılıb. Od-alovlu səngərdə valideynini də düşünən, ona öz duyğularını məktubunda bölüşən İlqar, müharibə sınaqlarına da toxunub, ölümdən qorxmadığını bir cəsur döyüşçü qətiyyəti ilə qeyd edib.

O, 1973-cü il iyulun 29-da Bakı şəhərində anadan olub. Rəhmanovlar ailəsində üç oğul dünyaya göz açıb, İlqar onların ortancılıdır. İlqar Bakı şəhəri Nərimanov rayonundakı 45 saylı, daha sonra Sabunçu rayonu Bakıxanov qəsəbəsindəki 252 saylı ümumtəhsil məktəblərində orta təhsil alıb. 1988-1991-ci illərdə paytaxtın Nərimanov rayonundakı 10 saylı texniki-peşə məktəbində dülgər (inşaatçı) ixtisasına yiyələnib. Ailə üzvlərinin dediyinə görə, İlqar qayğıkeş, ailəcanlı, zəhmətkeş, böyüklərə hörmətlə yanaşan, heç kimdən xeyirxahlığını əsirgəməyən gənc olub. Şəhid ailəsinin ünvanını axtararkən görüşdüyüm qonşuları da onu xoş sözlərlə xatırladılar, İlqarın ciddiliyini, ədəb-ərkanını xüsusi vurğuladılar. İ.Rəhmanov hərbi xidmətədək Keşlə qəsəbəsindəki mebel fabrikində işləyib, öz ixtisası üzrə müəyyən iş səriştəsi qazanmağa səy göstərib. Bununla yanaşı, İlqar "Məhsul" İdman Cəmiyyətində cüdo idman növü üzrə məşqlərə gedib. İştirak etdiyi müxtəlif yarışlarda idmançı bacarığı və qətiyyəti ilə fərqlənib, qalib yerlərə sahiblənərək təltif olunub. O, həmçinin, avtomobil sürməyə həvəs göstərib, imtahan verərək sürücülük vəsiqəsi də alıb.

İ.Rəhmanov 1992-ci ilin fevral ayında Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına həqiqi hərbi xidmətə qəbul olunub. Ölkəmiz üçün çətin və gərgin olan həmin dövrdə Daxili Qoşunların formalaşması həyata keçirilirdi. SSRİ dövründən mövcud olmuş və respublikamızın sərəncamına keçmiş hərbi hissələrlə yanaşı, yeni hərbi hissələr də yaradılırdı. 1992-ci ilin mart ayının 12-dən isə Daxili Qoşunlar erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edirdi. Əsgər İ.Rəhmanov o vaxt Bakının Nərimanov rayonundakı "N" saylı hərbi hissədə hərbi xidmətə başlayıb. Bu hərbi hissədə hərbi andı qəbul edib. Bir neçə aydan sonra bu hərbi hissədən Hacıqabul rayonunda yerləşən "N" saylı hərbi hissəyə göndərilib. Orada çox qısa vaxt hərbi xidmət keçdikdən sonra 1992-ci ilin avqust ayından ön cəbhədə, "N" saylı hərbi hissənin tərkibində döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunub. Onun döyüş yolu Ağdam-Ağdərə cəbhə bölgəsindən keçib. Öncə Ağdamın Seyidli kəndində yerləşdirilən şəxsi heyətin sıralarında olub. Buradan düşmənlə təmas xəttindəki mövqelərimizə göndərilərək torpaqlarımızın müdafiəsində dayanıb, Fərrux yüksəkliyi istiqamətindəki postlarda, habelə Manikli (hazırda Məlikli - Y.A.), Canyataq, Gülyataq, Qalayçılar, Boyəhmədli, Papravənd kəndlərinin ərazisində və ətraf yüksəkliklərdə düşmənlə cəsarətlə vuruşub. Bu döyüşlərdə neçə-neçə erməni işğalçısını məhv edib. Böyük qardaşı Şahinin milli ordu sıralarında döyüşlərdə iştirak etməsi və ağır yaralanması onun üçün Vətən naminə bir fədakarlıq örnəyi idi. Ailəsinə yazdığı məktublardan birində qardaşının vətənpərvərliyindən ruhlandığını qeyd edib və özünün də döyüşçü olması ilə valideynlərinin qürur duymasını istəyib.

Qələbə günümüzü görməyi və doğmalarına qovuşmağı arzulayırdı. Müharibədə nə qədər



sarsılsa da, inamını itirməyib. Bunu onun məktublarından duymaq olur. Döyüşçü üçün Vətən sevgisi, əqidəsinə inamı, qorxmazlıq, doğmalarının xeyir-duası və məhəbbəti çox mühüm amillərdir. İlqar son nəfəsinədək döyüş tapşırıqlarını əzmlə yerinə yetirib. Onun son döyüşü 1993-cü il iyun ayının 21-də, Ağdamın Papravənd kəndi (hazırda işğal altındadır -Y.A.) ərazisində olub. Düşmənin hücumunun qarşısını alarkən döyüşdüyü postda ağır yaralanaraq şəhidlik zirvəsinə ucalıb. 29 iyun 1993-cü ildə tərtib olunmuş ölüm haqqında şəhadətnamədə İlqarın güllə yarasından həlak olduğu yazılıb. Ailə üzvlərinin verdikləri məlumata görə isə İlqar döyüşdüyü post düşmən tərəfindən minaatanlardan atəşə



tutulub və o, ağır qəlpə yarasından həlak olub. Bunu ailəyə ön cəbhədən cənazəni gətirmiş hərbi qulluqçular bildiriblər.

Şəhid hərbi qulluqçumuz paytaxtın Bakıxanov qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn olunub. Onun haqqında dövrü mətbuatda yazı dərc edilib. Qeyd edim ki, bu günədək bəzi sənədlərdə şəhidin soyadı yanlış olaraq Rəhimov göstərilib. Ailənin bununla bağlı bildirdiyi irad haqlıdır. Rəhmanovlar ailəsinə dövlətimiz tərəfindən müvafiq müavinət təyin olunub.

İlqarın atası 2012-ci ildə vəfat edib. Anası Nəsibə xanım və qardaşları Şahin, Vüqar bu ötən illəri onun yoxluğunun ağrı-acısı ilə yaşayıblar, zaman keçsə də, doğma adamın, özü də müharibədə canını qurban vermiş bir gəncin itkisi ilə barışmaq yenə də çox çətindir. Ancaq heç bir müharibə itkisiz olmur. Bu da təkzibolunmaz bir həqiqətdir.

Rəhmanovlar ailəsində İlqarın adını qardaşı oğlu daşıyır. İlqar tək bir ailənin deyil, bütövlükdə xalqımızın fəxr etdiyi oğullardan biri kimi həmişə ehtiramla anılacaq.

Allah rəhmət eləsin!

Yalçın Abbasov
DİN-in Daxili Qoşunlarının
Veteranlar Şurasının katibi

# Азербайджан будет жить вечно!

В какой раз я перечитываю эти трогательные слова и каждый раз они волнуют и вызывают гордость за Общенационального лидера Азербайджанской Республики Гейдара Алиевича Алиева и в особенности сейчас в канун 95-тилетия этого великого человека.

Мудрый и справедливый ,Гейдар Алиев остался в сердцах своего народа как пример патриотического служения своей родине, своему государству, его чести и независимости.

Гейдар Алиев стал составной частью национальной идеей азербайджанского народа самосознания, образом гордости и достоинство азербайджанской духовности.

После развала СССР и вновь обретённой независимости, в стране были огромные трудности которые были устранены и самое главное то,что были прекращены боевые действия в Нагорном Карабахе.

Последователь продолжения великого дела Общенационального лидера Гейдара Алиевича Алиева плодотворно продолжает нынешний Президент Ильхам Гейдарович Алиев.

Я ,как ветеран войны и вооруженных сил проживающей почти 65 лет,и мои боевые друзья восхищаемся Вашей многогранной деятельностью в наше непростое и весьма сложное время. Впечатляют Ваша мудрость,способность принимать в извещенное политические решения,организововоть эффективное государственное управления и конечно,забота о благополучии простых людей. Весь народ и в том числе ветераны искренне восхищяются Вашей титанической деятельностью на благо людей и укрепления прочного мира на Земной Планете.

Очень символично что скоро будет отмечать 73-я годовщина Великой победы одержанной 9 мая 1945 года над самом злейшем врага всего Миром над немецком нацизмом и я с волнением вспомнил одно из Ваших выступлений: «Все люди сражавшиеся на фронте и самоотверженно трудившиеся в тылу достойной самого глубокого уважения. Ваш пример является ярким образцом для нынешних и грядущих поколений!»

Я знаю что это не просто слова. И в этом ещё раз убедился , когда 7 мая 2017 года в г.Баку состоялось открытия нового административного здания Организации ветеранов войны,труда и Вооружённых Сил.

Азербайджана и все присутствующие на нём слушали Вашу яркую и проникновенную речь.

И огромное душевное волнение охватила всех когда ознакомились с этим зданием ,сооруженном в самое короткое время по Вашему распоряжению, Господин Президент, всех поразило, что в расположенном административном здании с помощью электронно-информационного центра можно ознакомится с документами, фото и видеоархивом. В административном здании созданы все условия для провидения различных мероприятий в актовом зале, привлекающие внимание современном видом оснащение здание отвечает самым высоким стандартом. Ветераны смогут проводить здесь мероприятие ,направленное на воспитание молодого поколения в духе патриотизма. В коридоре созданы фото-уголки с портретами национальных героев Азербайджана и героев Советского Союза. В целом, в новом административном здании есть все условия для эффективной деятельности.Всё это еще раз доказывает,что Азербайджанское государство проявляет большое внимание и заботу о своих ветеранах. Ветераны удостоиваются высоких наград, им предоставляются автомобилей всем ветеранам, стоящим в очереди. Предоставляются квартиры, денежные вознаграждения.

Как Вы отмечали в своей речи, что самое высокое денежное вознаграждение на пространстве СНГ предоставляется именно в Азербайджане и безусловно все ветераны , их жёны и дети тысячу раз благодарны Вам.

Мы ветераны восхищаемся тем что в Азербайджане бережно и с любовью сохраняются вновь отребмонтированное Мемориальный комплекс на котором захоронены более трёх тысяч представителей бойцов и командиров получивших ранения на фронте и умерших в военных госпиталях, расположенных в Баку и в некоторых районов Республики и к большому счастью не было не одного случая надругательств над нами.

Всегда к ним приходят люди , бережно возлагают венки и букеты живых цветов.

Вечная им слава и вечная им память!

И мы с гордостью вспомнили слова Президента Страны, который в своей речи в день 70тилетия Великой Победы особо подчеркнул, что Азербайджан сыграл решающую роль в победе над германским фашизмом так как не будь азербайджанской нефти, труда азербайджанских нефтяников, итоги войны могли быть совершенно иными. В то время – в годы войны в Советском Союзе было добыто 110 миллионов тонн нефти. Из них 75 миллионов тонн было добыто азербайджанскими нефтяниками. Не случайно, германский фашизм приложил огромные усилия для оккупации Баку. Потому что если они захватили бы Баку, то тогда завладели бы большинством энергетическим ресурсом всего Советского Союза и таким образом из-за не хватки топлива итоги войны могли бы быть совершенно иными. Но наш народ не смотря на огромные трудности выстоил и победил ненавистного врага. Слава и почёт нашим доблестным нефтяникам!!!

Сегодня Азербайджанская армия ,как субъект государственной власти, выполняет огромные усилия по созданию безопасной условий жизни деятельности азербайджанский граждан,применению более эффективных мер по обеспечению экономического и духовного развития страны,обеспечивает ее структуры в совершенствовании проектов международного общения и взаимодействия.

После развала СССР и вновь обретённой независимости ,согласно Указу Президента Азербайджанской Республики Гейдара Алиева от 22 мая 1998 года, исторический день создания Азербайджанской Демократической Республикой отдельного Азербайджанского корпуса в 1918 году 26 июня-объявлен Днём Вооруженных Сил Азербайджана ежегодно отмечаем азербайджанским народам.

Сегодня Азербайджанская армия стала самым надёжным гарантом не зависимости Азербайджанской Республики и её народа, сделавшего выбор-создания демократического государства.

Национальная армия Азербайджана создавалась не простых условиях. Летом 1991 года конфликт в Нагорном Карабахе перешёл в стадию открытой войны, хотя и не объявленной.

Азербайджан был вынужден в срочном порядке создавать свои вооружённые силы, что бы защитить гражданское население ряда районов, подвергшихся агрессии вооружённых в бандформирований армянских сепаратистов.

Мне и моим боевым товарищам – ветеранам в прошлом году выпала большая честь присутствовать на военном параде и лично убедиться какой новейшей боевой техникой оснащены Армия , авиация и военно-морские силы ,которые бдительно защищают территориальную целостность Азербайджана.

Учитывая, что 95-тилетие Общенационального Лидера Азербайджана Гейдара Алиевича алиева,73годовщина блестящей Победы над фашизмом 9 мая 1945 года и предстоящие выборы Президента Страны Ильхама Гейдаровича Алиева 10 апреля 2018 года составлены плана работы развернулось активная деятельность по их выполнению и это даёт свои положительные результаты в октябре 2017 года на базе нашего совета ветеранов, учитывая принципиальную антифашистскую позицию в Республике, решением Международного союза «Содружество Общественных организаций ветеранов независимых государств» прошла масштабная международная конференция, посвященная этому вопросу.

Представители десятков стран собрались в Баку, чтобы обсудить : почему в наше время происходит рецидив фашизма и как пресечь это страшное зло.

Руководство Организации ветеранов Азербайджана поручило мне выступить на этом Международном форме и я вновь несколько раз перечитывал яркие и аргументированные речи и выступления Ильхама Гейдаровича Алиева и строго руководствуясь ими выступил и с особой силой привел слова Президента Страны, а там что сегодня в которых местах фашистская идеология вновь поднимает голову. Мы не можем допустить этого , оставаться этому равнодушными. Правда о войне искажается. Словно кто-то пытается переписать историю на основе лжи ,по политическому заказу. Некоторые силы пытаются отрицать решающую роль советской армии в достижении-Победы. Это невыносимо, неприемлемо. Поэтому все мы-ветераны, политики, общественность мировая общественность должны сказать и говорим своё слово по данному вопросу.

Тепло встретили делегаты форума слова Президента Страны о том: что Вы, ветераны как всегда,отличаются своей активной позицией,и ваше слово имеет огромное значение. Вы являетесь живым сведетелями,участникаами войны,этой истории.

Вы,ветераны обратились с письмом к главам государств ряда-стран,написали об армянском фашизме,организации фашистов в Армении. Я приветствую это.Об этом должен знать каждый.Это невыносимо.Поэтому мир знает и должен знать каково роль азербайджана во Второй Мировой войне,так и нашей нынешней позиции.Благодаря титонической деятельности Президента Ильхама Гейдаровича Алиева Обстановка Азербайджана стабилизировалась.

По нашей инициативе поддержанной Международной Ассоциацией генерал-майором Терещуком Николаем Васильевичем создано её отделение при Организации Азербайджана и уже принята 14 человек,которые проводят большую работу пропоганде героев Великой Отечественной войны 1941-1945 годах и это даёт свои положительные плоды.

Особенно надо отметить работу принятых писатели Муса Багирова, Александра Гритченко, Тофика Саидова, Тофика Бабаева, Галину Шипулину, Шатдата Дфарова и других.

Хотел бы отметить и тепло поблагодарить и Вице приззидента Михрибан Эльхама Алиева за поддержку 53-х летных моих книг,на Азербайджанском и русском языке. Все эти книги получили теплый отзывы у метной печати и читателей.

Хочу отметить с гордостью и радостью, что минувшие 2011-2015 годы были годами дальнейшего роста авторитета Азербайджанской Республикой Ветеранской Организации, годами ее новых инициатив,успехов в медико-социальном,культурно-бытовым обслуживании ветеранов развития мемориально-патронатной работы. Годы были действительно необычными во всех отношениях.

С особой сердечностью и благодарностью хочу отметить,подоляющее ветеранов нашей организации пользуется большим вниманием и находиться у нас на особом учёте. Да!Для нас они – великие люди Президентом.

Фронтовики и труженики тыла военных лет это живые герои. Именно с их подвигом связан праздник Победы. И очень важно,чтобы они жили как можно дольше,потому что они не сказки пересказывают,они о своем опыте говорят,о пережитом.Рассказывают молодёжи о том свидетелями чего были.Такое свидетельство имеет огромную силу, силу убежденияк И мы как вы убеждаемся в том что в этих словах как бы заново прозвучит давняя истина,что ветераны –главное звено в цепи преемственности,поколений,хранители высоких моральных устав,славных добрых традиций,многократно умножённых.

Очень приятно и радостно что Организации ветеранов войны,труда и Вооружённых Сил в октябре нынешнего года,о до него почти 58 лет были очень плодотворные годы Бакинского Комитета ветеранов войны, котором руководили 28 лет герои Советского Союза Депутат Верхнего Совета Азербайджана полковник в отставке Аслан Везиров, десять лет у руля организации был генерал-майор Аким Аббасов, полковник отставке Агахсав Ахвердиев, Национальный Герой Азербайджана , капитан в отставке Мирзаджан Мамедов и полковник в отставке Расим Мухтаров спасибо им за их огромный труд! 10 апреля 2018 года состоятся выборы Президента страны. По ходу своей статьи я неоднократно подчеркивал что Ильхам Гейдарович Алиев продолжает дело Общенационального Лидера Азербайджана Г.А.Алиева и он будет достойным президентом страны и я с любовью голосовать за него и призываю к этому .

В начале свое статьи я с гордостью и волнением прочитал слова Гейдара Алиева Алиевича Алиева: « Азербайджан Будет жить вечно!» И я, как и весь Азербайджанский народ верю,что это так и будет!



Александр Гритченко
капитан первого ранга в отставке, участник войны с фашизмом 1941-1945 годах.

# GÖZƏGÖRÜNMƏZ CƏNGAVƏRİN SARSILMAZ DOSTLUĞU

Sevimli "Azərbaycan veteranı" qəzetimizin 10 mart 2018-ci il tarixli 04-05-ci sayında dərc edilmiş "Şarl de Qoll - Azərbaycanın dostu" sərlövhəli yazını oxuduqdan sonra aldığımız xoş təəssürat milli mənsubiyyətimizdən doğan qürur hisslərimizi birə-on qat artırmışdır. Vətənpərvər ruhla qələmə alınmış bu məqalədə 2-ci Dünya savaşında Fransada alman faşistlərinə qarşı vahid partizan hərəkatında misilsiz qəhrəmanlıq nümunələri ilə xüsusi ad qazanmış həmyerlimiz Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov haqqında sadalanan əksər döyüş faktları mənə çoxdan bəlli idi. Məni daha çox qürurlandıran beynəlmiləl qardaşlıq söhbətidir. Fransa-Azərbaycan xalqları arasında dostluğun parlaq timsalı kimi general Şarl de Qoll və igid azərbaycanlı övladı Əhmədiyyə Cəbrayılovun dədə-baba adətimiz üzrə barmaqlarını çərtərək qanlarını qarışdırmaq yolu ilə yaradılan qan qardaşlığına respublika veteranları tərəfindən ehtiram göstərilməsi və bu beynəlmiləl dostluğa istinadən fransız general Şarl de Qolun adının Azərbaycanda əbədiləşdirilməsi barədə təşəbbüsün irəli sürülməsi bizim də qəlbimizdən xəbər verir. Söz yox ki, Fransanın faşist əsarətindən azad edilməsi üçün fədakarlıq edən bir çox azərbaycanlılardan biri kimi Əhmədiyyə Cəbrayılovun Fransanın Milli Qəhrəmanı adına layiq görülməsi xalqımızın yüksək bəşəri dəyərlərə malik olmasının gercək nümunəsidir və qan yaddaşımıza yazılan bu fərəhgətirici igidlik əməlləri heç vaxt unudula bilməz.

İrəli sürülmüş təşəbbüs siyasi məna baxımından təkcə Fransa-Azərbaycan dostluğunun inkişafına stimul vermir, həmçinin gənclərimizin hərbi vətənpərvərlik fəaliyyətinin coğrafi hüdudlarını genişləndirir. Nəzərdən qaçırmaq olmaz ki, bu gün biz Qarabağ savaşı ilə bağlı olaraq tükənməz döyüşçü potesialına malik olmuşuq. Qəhrəman döyüşçülərimizin yeni nəsli formalaşır. Biz keçmiş qəhrəmanlıq tariximizi yaşatmasaq, bu günümüzün bəzi xoşagəlməz mənəvi problemlərindən tam yaxa çəkə bilmərik.

İgid və məğrur təbiətli həmyerlimiz Əhmədiyyə Cəbrayılov yad ölkədə düşmənə qarşı doğma döyüşçü kimi vuruşmuş və döyüşçü sənətinin ən ağır sahəsi sayılan partizanlıq fəaliyyəti göstərmişdir. Qorxmaz partizan mənəviyyatı hər kəsə nəsib olmur. Çox ağır sınaqlarla dolu məşəqqətli bir həyat sürmək, hər an ölümlə üz-üzə durmaq partizan üçün adi yaşam vərdişinə çevrilir. Canını fəda etmək cəsarəti ilə yanaşı partizan həssas bir qəlbə, yüksək ictimai dəyərli mənəvi qüvvəyə, geniş məzmunlu bəşəri hisslərə malik olmasa, bu məhdudluq onun döyüşçülük fəaliyyətində, xüsusən müəyyən qəfil və təhlükəli tapşırıqların icrasında özünü büruzə verə bilər.

Biz Qarabağ veteranları sözügedən təşəbbüs mövzusunda fikir mübadiləsi aparan zaman şəkili zabit yoldaşımız, ehtiyatda olan polkovnik-leytenant Kamran Məmmədov fransızlarla azərbaycanlıların sarsılmaz dostluğuna gözəl töhfə vermiş, Fransa Müqavimət Hərəkatının cəsur nümayəndəsi kimi Fransanın Fəxri legion ordeni, Müharibə xaçı, Könüllü xidmət xaçı, Hərbi şücaət xaçı və Müharibə medalları ilə təltif edilmiş Əhmədiyyə Cəbrayılov haqqında iftixar dolu xatirələrini söyləmişdir. Maraqlı və çox qiymətli haşiyə kimi deyilənləri qısaca açıqlamaq istəyirəm.

Kamran Məmmədovun dediklərindən: "Fransa Müqavimət Hərəkatında "Armed Mişel", "Rus Armed", "Xarqo", "Matye Mişel", "Kuraje Mişel" adları altında fəaliyyət göstərən və heyrətamiz şücaəti ilə fransızların qəlbində ucalan həmyerlimiz Əhmədiyyə Cəbrayılovu biz şəkililər "De Qoll Əhmədiyyə" deyə çağırırdılar. Oxud kəndimizin layiqli yetirməsidir. Fransızların xatirində o, gözəgörünməz cəngavər kimi daim sevilməkdədir. Bu sevgiyə general Şarl de Qoll tərəfindən rəsmi dövlət səviyyəsində özül qoyulmuşdur. General ona şəxsi pistolet bağışlamışdır. Əfsanəvi igidliklərinə görə aldığı orden və medallar ona Fransada keçirilən hərbi paradda generallardan irəlidə addımlamaq hüququ vermişdir. Şəkidə onunla bağlı həqiqətləri uşaqdan tutmuş böyüyədək hamı yaxşı bilir. Mən onun haqqında birinci dəfə 1972-ci ildə uşaqlıq çağlarımda pioner düşərgəsində olarkən eşitmişəm. Axşam vaxtı düşərgəmizə təşrif gətirmiş 2-ci Dünya müharibəsi veteranlarının xüsusi tonqal ətrafında döyüş xatirələrini dinləyirdik. Fransanın azadlığı uğrunda faşistlərə qarşı döyüşlərdə De Qoll Əhmədiyyənin igidliyi barədə aldığımız məlumatlar bizi hədsiz heyran etmişdi. O, Fransanın cənub bölgəsində yerləşən Mantaban, Rodez və Albi şəhərlərində 1942-ci ildən etibarən 1943-cü ilin axırınadək yerli partizanlarla birgə faşistlərə amansız qan uddurmuşdur.



1944-cü ilin baharında meşə ərazisində qurulmuş qərargahda general Şarl de Qoll ilə görüşmüşdür. Ondan aldığı xüsusi tapşırıq əsasında Bordo şəhərinin mərkəzinə planlaşdırılmış hücumda patizanlarla birgə iştirak edərək 20-yə qədər düşmən tankını məhv etmişlər. Bu qəfil hücum faşistləri yaman çaşbaş salmışdı. Çünki onlar hücumu kənardan gözləyirdilər. Partizanlar yeraltı keçidlərdən istifadə edərək şəhərdə faşistlərin qərargahını mühafizə edən tankları bir göz qırpımı içərisində yandırmışdılar. Törədilən bu təxribatın ağır nəticələrinin təsirindən düşmən qüvvələri şəhəri tərk etməli olmuşlar.

Hərbi taktiki hiyləgərliyi, döyüşçü fəndgirliyi ilə seçilən Əhmədiyyə Cəbrayılovun başına almanlar 10 min marka pul qoymuşdular. Daim izlənilən həmyerlimiz bir müddət "Xarqo" adı altında bərbərxanada bərbər kimi çalışaraq mühüm vəzifə daşıyan neçə-neçə alman zabitini ələ keçirmişdir. O, çox maraqlı bir plan qurmuşdu. Bərbərxanada müştəri skamyası mexanikləşdirilmişdi. Axşam çağları müştərilərin gəlmə dəqiqələrini elə nizama salırdı ki, asudə məqamlarda xüsusi düymənin basılması vasitəsilə skamya zirzəmiyə düşürdü. Bu yolla tutulan məsul şəxslərdən xeyli dəyərli kəşfiyyat məlumatları əldə edilmişdi.

Digər bir əməliyyatda alman zabiti formasını geymiş Əhmədiyyə Cəbrayılov 500-ə yaxın fransız uşağını Almaniyaya aparmaq istəyən faşist dəstəsinin planını pozmuş və onların keçmək istədiyi dəmir yolu xəttini partlatmışdır. Üzbəüz döyüşdə faşistlərin çoxunu susdursa da, müdafiə məqsədilə geriçəkilmə zamanı yaralandığına görə almanlar tərəfindən əsir götürülmüşdür. Yüksək dözüm və sarsılmaz iradə sayəsində bu bəladan da mərdanə çıxa bilmişdir.

Dünyasını dəyişmiş əfsanəvi partizanımız Əhmədiyyə Cəbrayılov doğma Oxud kəndində dəfn olunmuşdur. Bir ənənə olaraq respublikamıza rəsmən qonaq gələn Fransa nümayəndələri onun qəbrini böyük ehtiramla ziyarət edirlər. Haqqında bədii əsərlər yazılmış, sənədli filmlər çəkilmiş və internetin məlumat bazalarında yığcam informasiyalar qeyd edilmişdir. Fransa-Azərbaycan dostluğunu gözü götürməyən bəd niyyətli daşnak erməni diasporunun maliyyə dəstəyi ilə internetin Vikipediya saytının rus və fransız dili səhifələrində onunla bağlı məlumatlar silinsə də, bu qara əməl gercək tarixi qardaşlığın üzərinə kölgə sala bilməmişdir.

Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, mənim rəhmətlik atam da əslən Şəkinin Oxud kəndindəndir. İgid həmyerlimiz Əhmədiyyə Cəbrayılovla müəyyən qohumluq əlaqəsi də var. Yəni biz onunla ünsiyyət zamanı yüksək mənəviyyat sahibi olmasına yaxından bələd olmuşuq, həmçinin keşməkeşli səngər həyatında göstərdiyi fədakar döyüşçü əməlləri, comərdliyi, şücaəti və o cümlədən əsl azərbaycanlı övladı kimi Fransa torpağında ürəkdən gələn beynəlmiləlçi fəaliyyəti ilə bağlı gerçək bilgilər əldə etmişik. Məhz bu əsaslı səbəblərə görə də əfsanəvi Fransa partizanı kimi fransız xalqının böyük hörmətini qazanmış bu igid həmyerlimizin sevimli silahdaşı, dostu olmuş general Şarl de Qollun adının Azərbaycanda əbədiləşdirilməsi barədə Masallı veteranlarımızın təşəbbüsünü ürəkdən dəstəkləyirəm..."

Əlbəttə, əfsanəvi partizanımız barədə deyilən fikirlər bizi çox qürurlandırır. O, öz cəsur əməlləri ilə bizə həm heç vaxt solmayan uca bir şərəf gətirmiş, həm də beynəlmiləl bir dostluq bəxş etmişdir. Ümumən desək, dostluq hansı formada olursa-olsun yüksək bəşəri dəyərləri özündə əks etdirir. Fransada 2-ci Dünya müharibəsində mənfur alman faşistlərinə qarşı mübarizədə igid həmyerlimiz Əhmədiyyə Cəbrayılovun qazandığı dostluq açıqladığımız mənada daha müqəddəs xarakter daşıyır. Fransa dövlətçiliyi tarixində görkəmli şəxsiyyət kimi yetişən general Şarl de Qollun adının əbədiləşdirilməsi müharibənin od-alovu içərisində yaranmış tarixi azərbaycanlı-fransız dostluğuna yeni nəfəs verəcək və döyüşçü sədaqəti əsasında yaranmış beynəlmiləl qardaşlığı daha da möhkəmləndirəcəkdir.

***İbrahim MƏSİMOĞLU***
***hərbi yazıçı-jurnalist***

## Allah rəhmət eləsin

Respublika Veteranlar Təşkilatının kollektivi Binəqədi rayon Veteranlar Təşkilatının sədri Telman Hətəmovun qohumu

**Azər Abdullayevin**

vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir

Respublika Veteranlar Təşkilatının kollektivi II Dünya Müharibəsi iştirakçısı

**Rzayev İbrahim Bayram oğlunun**

vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33IBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**
**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu: 012*** *440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*